RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 142 (9309) 11 İYUL 2023-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev Şavkat Mirziyoyevi təbrik edib



**İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi Özbəkistanda keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev bu qələbəni Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda həyata keçirilən siyasətə xalqın verdiyi dəstək kimi qiymətləndirib və Özbəkistanın qarşıdakı illərdə də Şavkat Mirziyoyevin liderliyi ilə hərtərəfli inkişaf yolunu davam etdirəcəyinə əminliyini ifadə edib.

Özbəkistan Prezidenti təbriklərə və göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətini qeyd edib, əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı əldə edilmiş razılaşmaların və qəbul olunan qərarların yüksək səviyyədə icra olunmasından məmnunluqlarını bildiriblər.

Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevi Azərbaycana dövlət səfərinə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

*Prezidentin Mətbuat Xidməti*

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli Şavkat Miromonoviç.

Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Səsvermənin nəticələri milli iradənin ifadəsi, Özbəkistan vətəndaşlarının Sizin şəxsinizə olan sonsuz etimadının, inamının və hörmətinin, ölkənizin hərtərəfli inkişafı, rifahı və tərəqqisi naminə yürütdüyünüz siyasi xəttə geniş xalq dəstəyinin bariz təzahürüdür.

Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan-Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Xalqlarımızın iradə və məramından qaynaqlanan, qarşılıqlı inam və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi, tərəfdaşlığımızın yüksələn xətlə inkişaf etməsi xüsusi məmnunluq doğurur.

Sevindirici haldır ki, son dövrdə ikitərəfli münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında yeni istiqamətlər müəyyən edilmişdir. Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq.

Hörmətli Şavkat Miromonoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan Respublikasının və xalqının əmin-amanlığı və firavanlığı naminə məsul dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*



## Ədaləti Azərbaycan təmin edir

**İkinci Qarabağ müharibəsindən sonra regionda sülhün, təhlükəsizliyin təmin olunması üçün bütün imkanlarını səfərbər edən, qalib ölkə kimi məğlub Ermənistana sülh müqaviləsi imzalamağı təklif edən Azərbaycanın atdığı addımlar yenə də qısqanclıqla qarşılanır.**

Azərbaycana qarşı ittihamlar səsləndirilir, sülh müqaviləsinin şərtləri sırasına yenidən "status" məsələsinin daxil edilməsinə cəhd göstərilir.

Lakin hər kəsə bəllidir ki, bu gün bölgədə söz sahibi Azərbaycandır. Məğlub Ermənistan və onun bəzi xarici himayədarları isə ölkəmizi qisasçılıqda ittiham etsələr də, bu çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur. Çünki İlham Əliyevin söylədiyi kimi, "Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədaləti tələb edirik".

Prezident bildirir ki, bu gün Ermənistanla aparılan sülh danışıqlarının yekunlaşması həm Azərbaycana, həm də daha çox Ermənistana lazımdır. Sülh anlaşması beynəlxalq hüququn norma və prinsipləri əsasında imzalanmalı, anlaşmada postmüharibə reallıqları nəzərə alınmalıdır. Əgər Azərbaycanın tələbləri, şərtləri nəzərə alınmasa, sülh mümkün olmayacaq və bu da əlbəttə ki, Hayastanın acınacaqlı vəziyyətə düşməsi ilə nəticələnəcək.

→ 5

## Erməni yalanları hüquqi müstəvidə iflasa uğrayır

### Ermənistanın Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı iddialarının rədd edilməsi ciddi siyasi nəticələr doğuran hadisədir

Azərbaycan Xarici İşlər Nazirliyinin də yaydığı bəyanatda ifadə olunduğu kimi, "Biz məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarını alqışlayırıq.

Azərbaycan hər zaman ədalətin tərəfində olub, atdığı bütün addımları beynəlxalq hüquqa cavab verib. Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması da Azərbaycanın suveren hüququdur. Bu məntəqənin yaradılması ərazimizə qeyri-qanuni olaraq silah, hərbi texnika göndərilməsinin dayandırılması zərurətindən yaradılıb. Nəzərə almaq lazımdır ki, Ermənistan həmin ərazilərdə Rusiya sülhməramlılarının bayrağı altında Qarabağda qalmış qanunsuz silahlı birləşmələrinin təminatını və canlı qüvvəsinin rotasiyasını həyata keçirirdi. Ona görə də nəzarət-keçid məntəqəsi yaratmaqla ərazilərimizə qanunsuz daşınmaların qarşısını almaq bizim haqqımız idi.

→ 5

## Müqəddəs Taxt-Tac Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırlatdı.

Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyi vurğuladı.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını qeyd etdi.

Kardinal Pietro Parolin səfirliyin açılmasına görə təşəkkürünü bildirdi, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğuladı, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.

## Neokolonializm, müstəmləkəçilik, dini ayrı-seçkilik...

Fransanın hərəkətləri dünyanın bu və ya digər bölgəsində gərginliyin yaranmasına səbəb olur. Fransa tarixdə böyük müstəmləkə əraziləri olan ölkə kimi tanınır. Ancaq XIX əsrin sonu və XX əsrdə tədricən müstəmləkələrdən qurtuldu və onlarla yaxşı münasibətlər qurmağa söz verdi. Lakin vaxtaşırı Fransanın həmin ölkələrin daxili işlərinə qarışdığı, böyük qətliamlar törətdiyi aydın məsələdir. Digər tərəfdən, Fransa ona heç bir aidiyyəti olmayan müxtəlif bölgələrdə də gərginlik yaratmaq üçün cəhdlər edir. Bunlardan biri də Cənubi Qafqaz regionudur.

Fransa öz ərazisində cəmləşmiş nəhəng erməni şirkətlərindən əldə etdiyi mənfəətə görə Azərbaycana qərəzli mövqedə dayanır. Daim ölkəmizə qarşı əsassız qətnamələrin qəbul edilməsinə cəhdlər göstərir. Amma bu cəhdlər nəticəsiz qalacaq. Dünyada qlobal güc beynəlxalq hüquqdan üstün olsa da, bəzi ölkələr bu neqativ tendensiyanı məhv edir, öz daxili və xarici siyasətlərini azad şəkildə formalaşdırır. Öz gücü hesabına torpaqlarını işğaldan azad edən Azərbaycan da müstəqil daxili və xarici siyasət yürüdür. Beləliklə, müstəmləkəçi, işğalçılıq siyasətini dəstəkləyən Fransa ilk növbədə öz daxili siyasətinə diqqət yetirməli, dini, irqi ayrı-seçkiliyi dəstəkləyən siyasətindən əl çəkməlidir.

→ 5

## Hasilata başlanılıb



Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlanılıb.

SOCAR-ın Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu mərhələ sualtı hasilat quyusunu SOCAR-ın "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və TotalEnergies hər biri 50% paya malikdir.

Qeyd edək ki, Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan Abşeron İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən Mərkəzi İdarəetmə Otağından həyata keçirilir.

SOCAR etibarlı tərəfdaşları ilə birlikdə ölkəmizin böyük enerji potensialının reallaşdırılması və Azərbaycan qazının beynəlxalq bazarlara çatdırılması istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək.

## M.M.Seyidovun Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mirsaleh Miradil oğlu Seyidov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

## C.Ə.Həsənovun Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əkbər oğlu Həsənov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

## M.B.Babanlının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mustafa Baba oğlu Babanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

## Azərbaycanın xarici işlər naziri Müqəddəs Taxt-Tacın dövlət katibi ilə görüşüb



Xarici işlər naziri Ceyhun Bayramov Müqəddəs Taxt-Tacın ölkəmizdə səfərdə olan dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Azərbaycan-Vatikan münasibətlərinin cari vəziyyəti və perspektivləri, Azərbaycanla Ermənistan arasında sülh prosesi və bölgədəki hazırkı vəziyyət müzakirə edilib. Nazir Ceyhun Bayramov Azərbaycanın ölkələrimiz arasında olan münasibətlərə böyük əhəmiyyət verdiyini və bu xüsusda Azərbaycanın Vatikanda yeni fəaliyyətə başlayan səfirliyinin əməkdaşlığın daha da inkişafına xidmət göstərəcəyinə əminliyini ifadə edib. İki tərəf arasında həyata keçirilən yüksəksəviyyəli səfərlər mübadiləsinin bu münasibətlərin inkişafına təkan verdiyi qeyd olunub.

Nazir həmçinin qarşı tərəfə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə törədilmiş cinayətlər, vandalizm və dağıdılmış mədəni və dini irs barədə ətraflı məlumat verib. Bununla yanaşı, Ermənistanın törətdiyi və davam edən mina təhdidləri və digər təxribatları barədə müfəssəl məlumat verilib. 1990-cı illərdən bəri 3800-dən çox itkin düşmüş azərbaycanlı barədə hələ də məlumat olmadığı diqqətə çatdırılıb.

Qeyd edilənlərlə yanaşı, Ermənistanın sərhədi təsadüfən keçmiş hərbçilərin geri qaytarılması barədə etimad quruculuğu tədbirlərinə əməl etmədiyi xatırladılıb. Görüşdə həmçinin Azərbaycanın Vatikanın tarixi və dini məkanlarının bərpasında iştirakı məmnunluqla qeyd edilib və bunun mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

## "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in təsdiqi və "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

1. 2021-ci il 28 may tarixində Minsk şəhərində Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında imzalanmış "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş" Azərbaycan Respublikasının ona dair qeyd-şərti ilə (qeyd-şərt mətni əlavə olunur) təsdiq edilsin.

2. "Müstəqil Dövlətlər Birliyinin Hökumət Başçıları Şurasının iclasında Azərbaycan Respublikasının Hökuməti adından imzalanmış "Yalançı əmtəə nişanlarından və coğrafi göstəricilərdən istifadənin qarşısının alınması və kökünün kəsilməsi tədbirləri haqqında" Sazişin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının 2000-ci il 24 mart tarixli 844-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 6, maddə 400) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 iyun 2023-cü il*

## "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in icrası ilə bağlı səlahiyyətli orqanların (qurumların) müəyyən edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 921-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in 12-ci maddəsinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 2021-ci il mayın 28-də Minsk şəhərində imzalanmış "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar (qurumlar) qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi müəyyən edilsinlər.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişin Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanların (qurumların) müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2023-cü il*

## Müqəddəs Taxt-Tacın dövlət katibi Heydər Əliyev Mərkəzində olub













**Azərbaycanda səfərdə olan Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin iyulun 10-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, Pietro Parolin Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Müqəddəs Taxt-Tacın dövlət katibi həmçinin ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsi önünə gül dəstəsi qoyub.

Qonaq daha sonra Heydər Əliyev Mərkəzində olub. Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa mərkəzin fəaliyyət istiqamətləri və burada nümayiş olunan sərgilər barədə məlumat verib.





Mərkəzdə həmçinin Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolinin görüşü olub.

Görüşdə Azərbaycan və Müqəddəs Taxt-Tac arasındakı mövcud əlaqələr, mədəniyyət sahəsindəki layihələr, o cümlədən muzeylər və kitabxanalar arasındakı əməkdaşlıq məsələləri müzakirə edilib.

Görüş zamanı Müqəddəs Taxt-Tacın dövlət katibi 2023-cü ildə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət olunub.

Qeyd edək ki, Pietro Parolin Bakıda Tereza Ananın Mərhəmət bacıları sığınacağında və Müqəddəs Məryəm Katolik Kilsəsində də olub. İyulun 11-dək davam edəcək səfər çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət katibi həmçinin dini icmaların nümayəndələri ilə görüşlər keçirəcək. Qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələri böyük inkişaf yolu keçib və hazırda Azərbaycanla Müqəddəs Taxt-Tac arasındakı siyasi dialoq yüksək səviyyədədir.

Müqəddəs Taxt-Tac ilə Heydər Əliyev Fondu arasında da səmərəli əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə fond tərəfindən Vatikanda bəşəri əhəmiyyət daşıyan bir sıra tarixi abidələrin bərpası mədəni irsin qorunmasına mühüm töhfədir. Həmin layihələr dünya mədəni, tarixi və dini irsinin qorunması ilə yanaşı, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafında Azərbaycanın rolunu bir daha təsdiqləyir.

## *QMİ sədri:* "Etnik və dini müxtəliflik multikultural Azərbaycanın milli sərvətidir"

İyulun 10-da Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Qafqaz Müsəlmanları İdarəsinin sədri ilə Müqəddəs Taxt-Tacın dövlət katibi arasında təkbətək görüş keçirilib. Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Görüşdə çıxış edən Şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, Müqəddəs Taxt-Tacla Azərbaycan arasında, habelə Roma Katolik Kilsəsi ilə QMİ arasında münasibətlər yüksək səviyyədədir. Ulu Öndər Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Papa II İohann Pavel Azərbaycana səfər edib, ölkəmizdə azsaylı katolik icması üçün kilsə inşa olunub.

Diqqətə çatdırılıb ki, Müqəddəs Taxt-Tacla Azərbaycan arasında əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin Vatikana səfərləri xüsusi rol oynayıb. Dövlətimizin başçısının və birinci xanım Mehriban Əliyevanın Vatikanda və ölkəmizdə Müqəddəs Taxt-Tacın rəsmiləri ilə görüşləri, Heydər Əliyev Fondunun xətti ilə Vatikanda reallaşdırılan layihələr misilsiz tarixi əhəmiyyətə malikdir.

QMİ sədri qeyd edib ki, Papa Fransisklə Bəhreyndə, Qazaxıstanda qardaşlıq görüşləri heç şübhəsiz, dini mərkəzlərimiz arasında mövcud yüksəksəviyyəli münasibətlərin daha da möhkəmlənməsi, ümumilikdə müsəlman-xristian dialoqu prosesinə dəyərli töhfə olub. Papa Fransiskin Əl-Əzhər Şeyxi Əhməd ət-Tayyib ilə birgə 2019-cu ildə Abu-Dabidə imzaladığı İnsan Qardaşlığına dair sənəd dünyada insan həmrəyliyinə xidmət edən ali məramın təcəssümüdür.

Şeyxülislam etnik və dini müxtəlifliyin multikultural Azərbaycanın milli sərvəti olduğunu deyib. Bildirilib ki, Azərbaycan bu monolitliyi, dini-mənəvi harmoniyanı, xalq-dövlət birliyini 44 günlük Vətən müharibəsində əyani şəkildə nümayiş etdirib.

"Bu gün məscid və məbədlərimizi yerləyeksan edən erməni vandalizminin izlərini bütün dünya görür, basdırdıqları minalar bu gün də yüzlərlə mülki şəxsin həyatına son qoymaqda davam edir. Dövlətimiz işğaldan azad etdiyimiz ərazilərdə vandalizm qurbanı olmuş dini-mənəvi irsimizi heç bir ayrı-seçkilik qoymadan bərpa edir, yenidən qurur. Təəssüf olsun ki, əsrlərboyu bütün dini icmaların sülh və əmin-amanlıq şəraitində yaşadığı Azərbaycana qarşı ermənilərin körüklədiyi əsassız, ədalətsiz və qərəzli ittihamlar səngimir", - deyə A.Paşazadə vurğulayıb.

Sonra çıxış edən Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ölkələrimiz arasında çox gözəl əlaqələrin mövcud olduğunu deyib. Humanitar məsələlərdə hər iki ölkənin eyni məqsədinin olduğunu qeyd edən kardinal bildirib: "Ötən il əlaqələrimizin qurulmasının 30 illiyini qeyd etdik. Azərbaycan multikultural ölkə kimi parlayır. Azərbaycana daim sülh arzu edirəm".

Qonaq xalqımızın qonaqpərvərliyini, tolerantlığını yüksək qiymətləndirib, Bakıda həyata keçirilən quruculuq işlərinə heyran qaldığını deyib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Sonda xatirə hədiyyələri təqdim olunub.

# "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" adlı konfrans





**İyulun 10-da Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə ADA Universitetində Prezident İlham Əliyev tərəfindən elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində "Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransda Xarici İşlər Nazirliyinin rəhbər heyəti və əməkdaşları, fəxri qonaqlar, Azərbaycan Respublikasının xarici ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin rəhbərləri və Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpusun nümayəndələri iştirak ediblər.

Konfransda açılış nitqi ilə çıxış edən ADA Universitetinin rektoru Hafiz Paşayev Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı münasibətilə öz təbriklərini çatdırıb, diplomatlarımıza fəaliyyətlərində uğurlar arzu edib. Növbəti günlərdə keçiriləcək ölkəmizin diplomatik xidmət orqanlarının rəhbərlərinin müşavirəsinin başlamasından öncə müasir və müstəqil Azərbaycanın qurucusu Ulu Öndər Heydər Əliyevə həsr edilmiş konfransın təşkilinin simvolik əhəmiyyət daşıdığı qeyd olunub.

Sonra çıxış edən Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunması, inkişafı istiqamətində çoxşaxəli fəaliyyətindən geniş bəhs edib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli maraqlara əsaslanan, praqmatik xarici siyasət konsepsiyamızın bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi diqqətə çatdırılıb.

Daha sonra Azərbaycan Respublikasının Prezidentinin köməkçisi - Azərbaycan Respublikasının Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxışında Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkəmizin inkişafı, xalqımızın rifahının yüksəldilməsi naminə misilsiz xidmətləri barədə konfrans iştirakçılarını ətraflı məlumatlandırıb.

Konfrans öz işinə Ulu Öndər Heydər Əliyevə həsr olunmuş panel sessiyası ilə davam edib. Panel sessiyasının natiqləri Azərbaycan Respublikasının sabiq Baş naziri və xarici işlər naziri Həsən Həsənov, Prezidentin Katibliyinin sabiq rəisi Dilarə Seyidzadə, ölkəmizin Rusiyadakı səfiri, sabiq mədəniyyət naziri Polad Bülbüloğlu və Xalq yazıçısı Elmira Axundova Ümummilli Lider Heydər Əliyevlə bağlı öz xatirələrini bölüşüblər.

Konfrans çərçivəsində həmçinin Heydər Əliyev Fondu tərəfindən ərsəyə gətirilmiş, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş "İz" sənədli filmi nümayiş olunub.

# DİN-də cari ilin 6 ayının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib




Daxili İşlər Nazirliyində (DİN) 2023-cü ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.

Bu barədə AZƏRTAC-a nazirliyin Mətbuat xidmətindən məlumat verilib.

İclası daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov açaraq bu ilin birinci yarısının da növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə təhlükəsizliyin etibarlı təmin edildiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən Prezident İlham Əliyevin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 38 əməkdaş və hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

İlin ikinci yarısında da qarşıda mühüm vəzifələrin durduğunu qeyd edən Vilayət Eyvazov onların ətraflı müzakirəsinin, xidməti fəaliyyətin təkmilləşdirilməsi üçün əlavə təşkilati tədbirlərin müəyyən edilib həyata keçirilməsinin vacibliyini bildirib.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 19 min 533 cinayət qeydə alındığını və bu cinayətlərin 95,5 faizinin (18.661-i) daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olduğunu bildirib. Eləcə də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 15,4, qəsdən sağlamlığa ağır zərər vurmaların 12,3, əzab vermələrin 22,2, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 21,7, adam oğurluqları və quldurluqların hər birinin 25, soyğunçuluqların 8,4, xuliqanlıqların 16,6, oğurluqların 1,7, onlardan mənzillərdən edilənlər 21,7, ailə münaqişəsi zəminində baş vermiş cinayətlərin 1,4, ictimai yerlərdə qeydə alınmış cinayətlərin 13,6 faiz azaldığını qeyd edib.

Kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə ümumi cinayətlərin 90 faizinin, o cümlədən "isti izlər"lə 1605 cinayətin açıldığını, 4587 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 3291 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 79,4 faizinin ödətdirildiyini vurğulayıb.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 395 kriminal qrup zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 275 nəfər cinayət məsuliyyətinə cəlb edilib, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 946 kiloqram çox - 2 ton 921 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya olunan 143 ton narkotik xassəli bitki aşkarlanaraq məhv edilib.

Seyfulla Əzimov vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində mediada qabaqcadan məlumat verilməklə 2 min 318 vətəndaşın qəbulunun həyata keçirildiyini, qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığını bildirib.

Sonra nazirliyin bir sıra baş idarələrinin, Polis Akademiyasının və ərazi polis orqanlarının rəhbərləri görülən işlər, əldə olunan nəticələr, eyni zamanda fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda vətəndaş məmnunluğunun təmin edilməsinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulan maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan Vilayət Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Nazir cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların və medianın fəal iştirakına da toxunaraq onlara, habelə respublikada ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, istintaqı, keçmiş illərdən bağlı qalmış 258 cinayətin açılmasında birgə səmərəli fəaliyyətlərinə görə Baş Prokurorluğun və ərazi prokurorluqlarının əməkdaşlarına təşəkkürlərini ifadə edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət işini peşəkarlıqla yerinə yetirməsinin vacibliyini nəzərə çatdırıb.

Kollegiyada müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul edilib və növbəti iclasda onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi qeyd olunub.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Prezident İlham Əliyevə bütün şəxsi heyət adından minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcək.

# Ələt Azad İqtisadi Zonasında tikiləcək zavodda 300-dən çox iş yeri yaradılacaq



İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) və Macarıstanın "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsinin imzalanmasına həsr olunmuş tədbir keçirilib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov layihənin ölkələrimizin biznes dairələrinin əməkdaşlığının gücləndirilməsinə, Azərbaycanda qeyri-neft sektorunun davamlı artımına, yerli istehsala və məşğulluğun təmin edilməsinə töhfə verəcəyini qeyd edib. Vurğulanıb ki, qarşılıqlı hörmətə əsaslanan Azərbaycan-Macarıstan əlaqələri yüksələn xətlə inkişaf edir, iqtisadi-ticarət əməkdaşlığı genişlənir. Qeyd olunub ki, Macarıstanla ticarət, sənaye, enerji, o cümlədən bərpaolunan enerji, investisiya və digər istiqamətlər üzrə əməkdaşlığın inkişafı üçün böyük perspektivlər var. İqtisadiyyat naziri Ələt Azad İqtisadi Zonasının imkanlarının yerli və xarici investorlar, o cümlədən Macarıstan investorları üçün geniş imkanlar açdığını bildirərək, yeni birgə layihələrin həyata keçiriləcəyinə əminliyini ifadə edib.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayaraq, iki ölkə arasında siyasi və iqtisadi əlaqələrin davamlı inkişafının, işgüzar dairələr arasında tərəfdaşlığın, birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb, əməkdaşlığın müxtəlif istiqamətlər üzrə gücləndirilməsi barədə fikirlərini bildirib.

Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov rəhbəri olduğu qurumun fəaliyyəti, "Hell Energy" şirkətinin icraçı direktoru Barbabas Çereklye və AİŞ-in icraçı direktoru Ülvi Mansurov isə layihə barədə məlumat veriblər. Tədbirdə layihənin təqdimatına dair videoçarx nümayiş etdirilib.

Tədbir çərçivəsində AİŞ və "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanıb. Sənədə əsasən, Ələt Azad İqtisadi Zonasının ərazisində Avropa ölkələrinin qabaqcıl texnologiyalarına əsaslanan, illik istehsal gücü 700 milyon ədəd alüminium içki qutusu təşkil edəcək (ilkin mərhələdə illik doldurma gücü 415 milyon ədəd alüminium içki qutusu) yeni zavodun tikintisi nəzərdə tutulur. Layihə çərçivəsində 300-dən çox iş yerinin yaradılması planlaşdırılır.

# İslam İnkişaf Bankı azad edilmiş ərazilərin reinteqrasiyasına töhfə verməyə hazırdır



İqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankı Qrupunun Türkiyə Regional Ofisinin direktoru Valid Məhəmməd Abdelvahab ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyat naziri Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə münasibətlərin inkişafında maraqlı olduğunu, bankın ölkəmizdə iqtisadi inkişaf, o cümlədən özəl sektorun fəaliyyətinin genişlənməsi istiqamətində göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd edilib ki, İslam İnkişaf Bankı Qrupunun Azərbaycan iqtisadiyyatının inkişaf prioritetlərini dəstəkləmək üçün Ölkə üzrə Əməkdaşlıq Çərçivəsini hazırlamaq təşəbbüsü də bu baxımdan xüsusi qeyd olunmalıdır. Həmin sənəddə ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərinə müvafiq olaraq, bərpaolunan enerji, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, həmçinin rəqəmsal transformasiya və digər istiqamətlərdə dəstək nəzərdə tutulur.

Valid Məhəmməd Abdelvahab Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, bankın Azərbaycanın sosial-iqtisadi inkişafına, o cümlədən azad edilmiş ərazilərimizin reinteqrasiyasına töhfə verməyə hazır olduğunu vurğulayıb, tərəfdaşlığın inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri, prioritet sahələr, o cümlədən azad edilmiş ərazilərimizdə reallaşdırılan layihələr üzrə əməkdaşlığın gücləndirilməsi barədə müzakirə aparıblar.

# Türkiyənin Ali Məhkəməsinin sədri və baş prokuroru Naxçıvanda səfərdədir

Baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin baş prokuroru Bekir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdədir.

Bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a məlumat verilib.

Nümayəndə heyəti əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək əziz xatirəsini ehtiramla anıb. Heydər Əliyev Muzeyinə gələn qonaqlar Ümummilli Liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Ulu Öndərin hər kəsə örnək olan çoxşaxəli siyasi fəaliyyəti, o cümlədən həyatının Naxçıvan mərhələsi haqqında xarici qonaqlara ətraflı məlumat verilib.

Sonra qonaqlar türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün Naxçıvan şəhərində ucaldılan büstünü ziyarət edib, abidə önünə gül dəstələri qoyaraq xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbir iştirakçıları Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını da ziyarət edib, xiyabandakı "Ana abidəsi"nin önünə gül düzüb, şəhidlərin xatirəsinə ehtiramlarını bildiriblər. Həmçinin qonaqlar şəhidlik zirvəsinə ucalanların məzarlarını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türkiyə ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoyublar.

Səfər çərçivəsində Türkiyədən olan nümayəndə heyəti baş prokuror Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli arasında görüş keçirilib. Görüşdə Naxçıvanda aparılan kompleks islahatlar, yenidənqurma işləri barədə ətraflı müzakirə aparılıb.

Bundan sonra "Azərbaycan və Türkiyə prokurorluqlarının sərhədyanı əməkdaşlığı" mövzusunda konfrans keçirilib.

Konfransda baş prokuror Kamran Əliyev qonaqlara bütün sahələrdə olduğu kimi, ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu bildirib. Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxış edərək konfransın əhəmiyyətindən bəhs edib.

Həmçinin konfransda Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin baş prokuroru Bekir Şahin, o cümlədən digər mötəbər qonaqlar çıxış ediblər.

Nümayəndə heyətinin səfəri davam edir.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iyulun 10-da Qəbələ şəhərində yerləşən Mədəniyyət Mərkəzində vətəndaşları qəbul edib.

AZƏRTAC xəbər verir ki, Qəbələ, Oğuz, İsmayıllı və Ağsu rayonları sakinlərinin qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Nazir Rəşad Nəbiyev müraciətlərin mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşların müraciətlərində qaldırılan problemlərin bir qismi dərhal müsbət həllini tapıb. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

**Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşü və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmin görüşdəki çıxışı, irəli sürdüyü müddəalar beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardımın nə qədər mühüm əhəmiyyət daşıdığını, eləcə də Qoşulmama Hərəkatı kimi böyük siyasi təşkilatın bu məsələdəki əhəmiyyətli rolunu göstərdi.**




# Yeni çağırışlara cavab verən qətiyyət nümunəsi

Bu gün dünyanın, demək olar ki, bütün ölkələri müxtəlif çağırışlarla üzləşir. Etiraf edək ki, həmin çağırışların əsas hissəsi böyük güclərin sülh və təhlükəsizlik, ölkələrin ərazi bütövlüyü, sosial-iqtisadi inkişafı, ətraf mühit və s. məsələlərlə bağlı zaman-zaman yaratdıqları təhdidlərdir. Bu təhdidlərin dəf olunması, dünyamızdakı problemlərin yoluna qoyulması, bəşəriyyətin xoşbəxtliyi yaranmış vəziyyətə görə məsuliyyətini dərk edən bütün ölkələrin əl-ələ verib bir araya gəlməsindən asılıdır. Elə Qoşulmama Hərəkatının Bakıda keçirilən tədbirin əsas mövzusu, məqsədi də bu idi: "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli".

## "Bandunq prinsipləri"

İlk növbədə onu qeyd edək ki, Bakının belə mötəbər bir tədbirə evsahibliyi etməsi 2019-cu ildən başlayaraq Qoşulmama Hərəkatına sədrliyi dövründə bu quruma qazandırdığı çoxsaylı nailiyyətlərin növbəti nümunəsidir. Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatı çox böyük inkişaf yolu keçdi, ölkəmizə göstərilmiş beynəlxalq etimadı doğruldaraq böyük bir nümunə yaratdı. 2022-ci ildə sədrlik müddəti başa çatarkən üzv dövlətlərin yekdil qərarı ilə ölkəmizin quruma sədrliyinin daha 1 il uzadılması da Azərbaycanın Qoşulmama Hərəkatının inkişafına sərf etdiyi zəhmətə verilən qiymət idi.

Azərbaycan Hərəkata sədrliyi dövründə, ilk növbədə bu qurumun fəaliyyətinin əsas istinad mənbələrindən olan "Bandunq prinsipləri"ni aktuallaşdırdı, ədaləti, beynəlxalq hüququ və üzv ölkələrin qanuni maraqlarını qətiyyətlə qorudu. Azərbaycan hamıya anlatdı ki, hər bir dövlət BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də əsas insan hüquq və azadlıqlarına, ölkələrin ərazi bütövlüyü və suverenliyinə hörmətlə yanaşmağa, sayından asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımağa borcludur. Ölkəmiz Qoşulmama Hərəkatına sədrliyi dövründə də bu barədə mövqeyinə sadiq qalaraq dövlətləri digər dövlətlərin daxili işlərinə qarışmamağa, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmətlə yanaşmağa, onun ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı yönəlmiş hər hansı bir fəaliyyətdən, eləcə də güc tətbiq etməkdən və güc tətbiq etməklə hədələməkdən imtina etməyə, bütün beynəlxalq mübahisələri dinc, sülh yolu ilə həll etməyə çağırdı. Azərbaycan Qoşulmama Hərəkatının imkanlarından faydalanaraq ölkələri qarşılıqlı maraq və əməkdaşlığa təşviq etdi, ədalət və beynəlxalq öhdəliklərə hörməti münasibətlərin əsas meyarı kimi gündəmə gətirdi.

## Humanizm nümunəsi

Təbii ki, bütün bu məsələlərdə ən böyük təsir gücü, ölkənin, təşkilatın özünün göstərdiyi nümunə, yaratdığı örnəkdir. COVID-19 pandemiyasının bütün dünyanı çənginə aldığı, beynəlxalq ictimaiyyətin bu bəladan necə qurtaracağı sualı qarşısında çaşqın vəziyyətdə qaldığı vaxtda Azərbaycan Prezidentinin təşəbbüsü ilə məhz Qoşulmama Hərəkatı qısa müddətdə qlobal səyləri birləşdirdi.

2020-ci ilin mayında Azərbaycanın təşəbbüsü ilə bu mövzuda Qoşulmama Hərəkatının liderlər səviyyəsində onlayn sammiti keçirildi. 2020-ci ilin dekabrında isə BMT Baş Assambleyasının xüsusi sessiyası oldu. Qoşulmama Hərəkatının bəzi zəngin ölkələr tərəfindən yürüdülən "peyvənd millətçiliyi"nə güclü etirazı, Prezident İlham Əliyevin gündəmə gətirdiyi aktual məsələlər və bunun ardınca bütün ölkələr üçün peyvəndlərə ədalətli və universal çıxışla bağlı BMT qətnamələrinin qəbul edilməsi Qoşulmama Hərəkatının koronavirusla mübarizədə liderliyini göstərdi. Ehtiyacı olan ölkələrə yardım Azərbaycanın sədrliyinin digər prioriteti idi və bu sahədə də ölkəmiz nümunə ortaya qoydu. Əksəriyyəti Qoşulmama Hərəkatına üzv olan 80-dən çox ölkəyə ya ikitərəfli qaydada, ya da Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə COVID-19 ilə bağlı maliyyə və humanitar dəstəyi verdi. Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü ianə etdi. Azərbaycanın dəstəyi ilə həmçinin beş ölkə peyvəndlə təmin olundu.

Ölkəmiz beynəlxalq ictimaiyyətin məsuliyyətli və fəal üzvü olaraq postpandemiya dövrü ilə bağlı məsələləri də diqqətdən kənarda qoymadı. Azərbaycanın evsahibliyi ilə Bakıda Qoşulmama Hərəkatının pandemiyadan sonrakı bərpaya həsr olunmuş növbəti sammiti uğurla baş tutdu. Ölkəmiz Afrika və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin vəziyyətini nəzərə alaraq postpandemiya dövründə bu ölkələrin bərpasını dəstəkləmək məqsədilə iki qlobal çağırış elan etdi və özü ilk donor kimi hər iki çağırış üzrə bir milyon ABŞ dolları vəsait ayırdı.

## Dünya beşdən böyükdür

Azərbaycanın sədrliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafı istiqamətində də çox mühüm işlər görüldü. 2021 və 2022-ci illərdə Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Qoşulmama Hərəkatı Gənclər Təşkilatının yaradılması, həmçinin Hərəkatın qadınlar platformasının yaradılması istiqamətində işlərin aparılması buna nümunədir.

Bu gün Qoşulmama Hərəkatı bütün dünyada multilateralizmin əsl müdafiəçisi kimi BMT-dən sonra ikinci böyük təsisatdır. Planetimizin siyasi mənzərəsi Qoşulmama Hərəkatının yenidən formalaşan dünya nizamında öz yerini tapmasını vacib edir. Bu zərurəti şərtləndirən mövcud beynəlxalq təşkilatların, xüsusilə BMT-nin bəşəriyyətin gözləntilərinə cavab verməməsidir. BMT Təhlükəsizlik Şurası keçmişin qalığı olduğundan və hazırkı reallıqları əks etdirmədiyindən onun iş prinsipləri, qərarların qəbulu mexanizmi mövcud beynəlxalq reallıqlara adekvat olmadığından bu qurumda ciddi islahatların aparılması labüddür. Odur ki, Təhlükəsizlik Şurasında daha çox ölkənin təmsil olunması və coğrafi baxımdan daha ədalətli olması üçün onun tərkibinin genişləndirilməsi mövcud durumda ən doğru həll olardı. Bu baxımdan Azərbaycan Prezidenti İlham Əliyevin Bakıdakı tədbirdə etdiyi çıxışda BMT Təhlükəsizlik Şurasında Qoşulmama Hərəkatına bir daimi yer verilməsi, Qoşulmama Hərəkatına, İslam Əməkdaşlıq Təşkilatına və Afrika İttifaqına sədrlik edən ölkələrin BMT Təhlükəsizlik Şurasında veto hüququ ilə rotasiya əsasında yer alması təklifini diqqətə çatdırması təsadüfi deyildi.

Məlumdur ki, Qoşulmama Hərəkatı soyuq müharibə dövründə bir sıra dövlətlərin iki siyasi-hərbi qütb arasında qarşıdurmaya cəlb edilməmələri məqsədilə yaradılıb. Bu təşkilatı formalaşdıran böyük güclərin əsrlər boyu apardıqları müstəmləkəçilik siyasəti, həmin siyasətə qarşı birgə mübarizə istəyi idi. Əfsuslar olsun ki, dünyamız keçmişin utancverici neokolonializm mirasından hələ də qurtula bilməyib. Əksinə, hazırda neokolonializm meyillərinin artması müşahidə edilir. Prezident İlham Əliyev Azərbaycanın bundan narahatlığını nazirlər görüşündə də dilə gətirdi.

## Rəsmi Parisin üzrxahlıq borcu

Bu gün neokolonializmi hələ də davam etdirən ölkələrdən biri də məhz Fransadır və həmin ölkənin Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqları kimi ikrah doğurur. Özünü yalandan insan haqlarının və beynəlxalq hüququn müdafiəçisi kimi qələmə verən Fransa hələ də digər ölkələrin daxili işlərinə qarışmaqdan çəkinmir.

Fransa qoşunlarının bu yaxınlarda Mali və Burkina-Fasodan çıxarılması onun Afrikadakı amansız neokolonializm siyasətinin uğursuzluğa məhkum olduğunu bir daha göstərdi. Bu ölkə müstəmləkəçilik siyasətindən nəhayət ki, əl çəkərək Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmətlə yanaşmalıdır. Fransanın soyqırımlarla dolu müstəmləkəçiliyi dövründə 1,5 milyona yaxın əlcəzairlinin qətlə yetirilməsi də bu ölkənin başbilənlərinin alnında qara ləkə kimi qalır.

Təəssüflər olsun ki, rəsmi Paris özündə siyasi iradə, güc tapıb, məsələn, Niderland kralı kimi ölkəsinin müstəmləkə keçmişinə və qul ticarəti ilə məşğul olduğuna görə rəsmən üzr istəmək əvəzinə hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümüklərini müharibə qənimətləri kimi saxlayır. Bu iyrənc hərəkətindən, ümumbəşəri dəyərlərlə bir araya sığmayan davranışlarından utanmaq bilmir.

XX əsrin ikinci yarısı boyunca Əlcəzairdə və özünün dənizaşırı ərazilərində - Sakit okeanda, Fransa Polineziyasında bir neçə nüvə silahı sınağı keçirmiş, bununla qlobal səviyyədə ətraf mühitin deqradasiyasına, yerli icmalarda ciddi sağlamlıq problemlərinə səbəb olmuşdur. Bu ölkə həm bu əməllərinə, həm öz müstəmləkə keçmişinə, qanlı cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatındakı Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir. Fransa yalnız tarixi günahlarını etiraf edib üzr istəməklə keçmişin utanc ləkələrini az da olsa alnından silə bilər. Fransanın elə bu günlərdə əlcəzairli yeniyetmənin vəhşicəsinə öldürülməsindən sonra qarşılaşdığı dərin siyasi, sosial və humanitar böhranın nəticələrinin aradan qaldırılması da yalnız belə bir üzrxahlıq davranışları ilə başlanmalıdır. Çünki Fransa əsrlərdir başqa xalqlara etdiklərinin cəzasını çəkir və vaxtında özünün mənfur əməllərindən nəticə çıxarmasa, hələ daha böyük böhranlarla üzləşəcək. Əlcəzairəsilli 17 yaşlı yeniyetmənin Fransa polisi tərəfindən qətlə yetirilməsi bu ölkədə irqçiliyin və islamofobiyanın daha bir təzahürüdür. Fransada milli azlıqlara qarşı müxtəlif sferalarda getdikcə artan təzyiqlər rəsmi şəxslər və parlamentin hər iki palatasının üzvləri tərəfindən irqi nifrət xarakterli çıxışlar bu təzahürü getdikcə gücləndirir, narahatlığı artırır. Bu baxımdan, Qoşulmama Hərəkatı BMT-nin polisin atəş açmasını pisləyən və Fransanı "hüquq-mühafizə orqanlarında irqçilik və ayrı-seçkiliyin dərin problemlərini ciddi şəkildə həll etməyə" çağıran bəyanatını dəstəkləməklə haqqın-ədalətin, insan hüquq və azadlıqlarının, sülhün, gələcək nəsillər üçün daha xoşbəxt bir dünya arzusunun yanında olduğunu göstərdi.

## Fransasayağı riyakarlıq

Əfsuslar olsun ki, Fransa müstəmləkəçilik siyasəti aparmaqla yanaşı, həm də erməni separatizmini dəstəkləyir. Azərbaycanın Qarabağ bölgəsindəki erməni separatizmini müdafiə edərək geosiyasi rəqabət, xarici hərbi mövcudluq və "Orientalizm" müstəmləkəçilik siyasəti ilə Cənubi Qafqaz regionunda da mənfur təcrübənin tətbiqinə çalışır. Öz ərazisində hətta Korsika dilinə qadağa qoyan, etnik azlıqlar konsepsiyasını qəbul etməyən, amma bununla bərabər özünü Azərbaycandakı erməni milli azlığının müdafiəçisi kimi göstərməyə çalışan Fransanın bu davranışları riyakarlıqdan və ikili standartlardan başqa bir şey deyil. Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Fransa hakimiyyəti başqalarına mühazirə oxumağa cəhd etmək əvəzinə, öz ölkəsindəki narahatedici meyillərlə mübarizə aparmalıdır.

Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun Bakıda keçirilən nazirlər görüşündəki çıxışında iqlim dəyişikliyi, su qıtlığı, ərzaq təhlükəsizliyi, məcburi miqrasiya, mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi məsələlərinə də diqqət yönəldi. Dövlətimizin başçısı geniş vüsət alan islamofobiya və ksenofobiya hallarından, həmçinin islamın zorakılıq və terrorla eyniləşdirilməsi cəhdlərindən rahatsızlığını ifadə etdi, Danimarkada, Niderlandda, İsveçdə müqəddəs Quranın yandırılması, təhqir olunması və buna ifadə azadlığı adı altında bəraət qazandırılmasını tamamilə məsuliyyətsizlik kimi qiymətləndirdi və bunun qəbulolunmazlığını bildirdi, Vətən müharibəsindəki qələbəmizdən, ərazilərimiz Ermənistanın işğalından azad edildikdən sonra ölkəmizin üzləşdiyi bir sıra nəhəng çağırışlara diqqət yönəldi.

İşğal zamanı və işğaldan sonra Azərbaycanın ədalətli mövqeyini daim dəstəkləyən Qoşulmama Hərəkatının mötəbər toplantısında bu və digər məsələlərin gündəmə gətirilməsi regionumuzda sülh, sabitlik, gələcək inkişaf baxımından çox önəmlidir. 2020 və 2022-ci illərdə Qoşulmama Hərəkatı ölkələri BMT Təhlükəsizlik Şurasında Azərbaycan əleyhinə olan birtərəfli və qərəzli bəyanatların qəbul edilməsinin qarşısını alıblar. Onların Azərbaycana verdikləri dəstək haqqa, ədalətə, insan hüquq və azadlıqlarına, ikili standartlara qarşı mübarizəyə verilən dəstəkdir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Özbəkistanda prezident seçkiləri beynəlxalq hüquq normalarına uyğun keçirildi

Xəbər verildiyi kimi, iyulun 9-da Özbəkistanda növbədənkənar prezident seçkiləri keçirilib.



Seçkiləri müxtəlif təşkilatlardan, o cümlədən MDB, ATƏT, Şanxay Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Ümumdünya Seçki Orqanları Təşkilatından 800-ə yaxın beynəlxalq müşahidəçi, habelə yerli və xarici KİV-in 1400-ə yaxın nümayəndəsi izləyib.

Türk Dövlətləri Təşkilatından (TDT) beynəlxalq müşahidəçilər missiyası Özbəkistanda növbədənkənar prezident seçkilərinin təşkilini və keçirilməsini yüksək qiymətləndirib. "Seçkilər peşəkar şəkildə təşkil edilmiş və əhəmiyyətli pozuntulara yol verilmədən keçirilmiş, səsvermə prosedurlarına riayət edilmiş və şəffaflıq təmin edilmişdir. Missiya tərəfindən seçkilərin gedişinə inzibati və hüquq-mühafizə orqanları və strukturlar tərəfindən icazəsiz müdaxilə halları aşkar edilməmişdir". Bu barədə Mərkəzi Seçki Komissiyasında brifinq zamanı TDT baş katibinin müavini Sədi Cəfərov məlumat verib. O, həmçinin vurğulayıb ki, missiya üzvləri həm səsvermə, həm də səslərin hesablanması zamanı bir sıra seçki məntəqələrində olublar və bütün prosedurların vaxtında və qanunauyğun aparıldığını təsdiq edə bilərlər.

Şanxay Əməkdaşlıq Təşkilatının müşahidəçilər missiyası da Özbəkistanda prezident seçkilərinə hazırlığın və keçirilməsinin yüksək səviyyədə olduğunu qeyd edib. "Müşahidə zamanı biz vətəndaşların fəallığını və seçki komissiyalarının yüksək hazırlıq səviyyəsini gördük. Müşahidələrimizə əsasən deyə bilərik ki, səsvermə kənardan müdaxilə və gərginlik olmadan sakit və ahəngdar şəraitdə keçib. Seçki günü müşahidəçilər missiyası heç bir qanun pozuntusu qeydə almayıb", - deyə təşkilatın baş katibi Çjan Min MSK-nin mətbuat mərkəzində keçirdiyi brifinqdə bildirib.

"ŞƏT missiyası 22 müşahidəçidən ibarət olub. Onlar Daşkənddə və Daşkənd vilayətində 40-dan çox seçki məntəqəsində olublar, üstəlik, müşahidəçilər bəzi seçki məntəqələrinə planlaşdırılmamış baş çəkiblər və hər yerdə səsverməyə yüksək səviyyədə hazırlığın şahidi olublar", - deyə müşahidəçilərdən biri - Rusiya Dövlət Dumasının deputatı Gennadi Semgin bildirib.

Respublikada beynəlxalq müşahidəçilərin işləməsi üçün də bütün lazımi şərait yaradılıb. Bunu Müstəqil Dövlətlər Birliyinin müşahidəçilər missiyasının rəhbəri Sergey Lebedev brifinqdə bildirib. Onun dediyinə görə, seçkilər Özbəkistan Konstitusiyasının və Seçki Məcəlləsinin tələblərinə tam uyğun şəkildə, alternativ əsaslarla, şəffaf, açıq, ədalətli şəkildə və demokratik seçkilər prinsiplərinə uyğun olaraq keçirilib.

Xatırladaq ki, bülletenlərin hesablanmasından sonra Özbəkistanın hazırkı dövlət başçısı Şavkat Mirziyoyev iyulun 9-da keçirilən prezident seçkilərində 87,05 faiz səslə qalib gəlib. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayev məlumat verib. O, həmçinin bildirib ki, seçicilərin 4,43 faizi Özbəkistan Ali Məhkəməsi sədrinin birinci müavini, "Ədalət" - Sosial Demokrat Partiyasından prezidentliyə namizəd Robaxon Mahmudova səs verib. Prezidentliyə digər iddiaçılar - Xalq Demokrat Partiyasının namizədi Uluqbek İnoyatov 4,02, Özbəkistan Ekologiya Partiyasının namizədi Abdşükür Həmzəyev 3,74 faiz səs toplayıblar.

MSK-nin məlumatına görə, növbədənkənar prezident seçkilərində seçici fəallığı 79,8 faiz olub.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Azərbaycan ərazisində terror aktı törətməyi planlaşdıran xarici ölkə vətəndaşı saxlanılıb

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) ölkəmizin milli təhlükəsizliyinə və dövlət maraqlarına qarşı yönələn terror-təxribat və kəşfiyyat-pozuculuq fəaliyyəti ilə mübarizə istiqamətində əməliyyat-istintaq tədbirlərini davam etdirir.

DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılan araşdırmalarla Əfqanıstan İslam Respublikasının vətəndaşı, 1990-cı il təvəllüdlü Favzan Musa Xanın (Fawzan Mosa Khan) digər şəxslərlə qabaqcadan əlbir olaraq Azərbaycan Respublikası ərazisində ictimai sabitliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə partlayış, yanğın və ya digər bu kimi hadisələrlə müşayiət olunacaq, insanların həlak olması, onların sağlamlığına zərər yetirilməsi, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli halların baş verməsi ilə nəticələnəcək terror aktı törətməyi planlaşdırması müəyyən edilib.

Məlum olub ki, həmin əcnəbi qeyd olunan cinayət əməllərini törətmək niyyəti ilə xarici ölkədən Azərbaycan Respublikasına gəlib, Bakı şəhərində yaşadığı müddətdə üçüncü dövlətin ölkəmizdəki səfirliyinin yerləşdiyi ərazinin koordinatlarını müəyyənləşdirmək və terror aktını planlaşdırmaq məqsədilə səfirliyin binasının ətrafında müşahidə aparıb, terror aktında iştirak edə biləcək şəxslərin müəyyən edilərək bu fəaliyyətə cəlb olunması, odlu silah və partlayıcı maddələrin əldə edilməsi, bu məqsədlərlə maliyyə dəstəyinin alınması üçün digər şəxslərlə əlaqəyə girərək sövdələşib.

Faktla bağlı Favzan Musa Xan DTX-nin İstintaq baş idarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1 və 28, 214.2.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə terrorçuluq hərəkətlərinin törədilməsinə hazırlıq) maddələri ilə başlanılmış cinayət işi üzrə cinayət başında saxlanılaraq təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda terror aktını planlaşdıran şəxslərin dairəsinin tam müəyyən olunması istiqamətində DTX tərəfindən kompleks istintaq-əməliyyat və beynəlxalq hüquqi prosedur tədbirləri həyata keçirilir.

# Ordumuzun mövqeləri bir neçə istiqamətdən atəşə tutulub

İyulun 8-də saat 23:40-dan iyulun 9-u saat 06:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Zərkənd, Aqaraq rayonunun Karçevan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Bəzirxana və Dəmirçidam, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kilit yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 8-də saat 22:35-dən 23:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən ordumuzun Şuşa və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqeləri də atəşə tutulub. Bölmələrimiz tərəfindən bu istiqamətlərdə cavab tədbirləri görülüb.

Bundan əlavə, Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopterlər ordumuzun Naxçıvan Muxtar Respublikası və Laçın rayonu ərazilərində yerləşən mövqeləri, qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus kvadrokopter isə Xocavənd rayonu Tağaverd kəndi istiqamətində yerləşən bölmələrimizin mövqeləri üzərində kəşfiyyat xarakterli uçuşlar aparmağa cəhd göstərib.

Görülən təxirəsalınmaz tədbirlər nəticəsində mövqelərimiz üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən kvadrokopterlərin fəaliyyətinin qarşısı alınıb.

Eyni zamanda mühəndis texnikasının cəlb olunması ilə müxtəlif istiqamətlərdə təminat yollarının genişləndirilməsi, səngərlərin qazılması, sığınacaqların hazırlanması, eləcə də döyüş mövqelərinə müşahidə kameralarının quraşdırılmasına cəhd edən qeyri-qanuni erməni silahlı dəstələrinin fəaliyyəti bölmələrimiz tərəfindən görülən tədbirlər nəticəsində dayandırılıb.

*Əvvəli 1-ci səh.*

Təbii ki, ölkəmizin mövqeyi hər zaman olduğu kimi, yenə də beynəlxalq hüquqa və ədalətə söykənir. Bu səbəbdən Azərbaycan heç nədən çəkinməyərək öz işini görür. Prezident də bildirib ki, heç bir qüvvə iradəmizi qıra bilməz. İstənilən qüvvəyə lazımi yerdə layiqli cavab verilir.

İqtisadi və siyasi müstəqilliyini təmin edən Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev "dəmir yumruq"la 44 günə azad etdiyi torpaqlarımızı "dəmir iradə" ilə yenidən qurur. Özü də daha möhtəşəm, daha əzəmətli. Artıq İlham Əliyevin müəyyənləşdirdiyi Böyük qayıdışa dair dövlət proqramının da icrasına başlanılıb. Qarabağ və Şərqi Zəngəzurda həyat yenidən qaynayır. Bununla da İlham Əliyev dünyaya Azərbaycanla Ermənistanın fərqini göstərir. Doğma torpaqlarımızda dalğalanan bayrağımız isə düşmənlərə, onların havadarlarına gözdağı verir.

İlham Əliyevin söylədiyi kimi: "Biz qalib gəlmişik, biz qan tökmüşük, şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz öz torpağımızda müharibə aparmışıq və bu gün öz torpağımızda yaşayırıq və yaşayacağıq".

Hələlik isə Azərbaycan özünü təmkinlə aparır. Son iki il yarım ərzində Azərbaycan bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə gücünü göstərib. Bütün bular isə haylara bir mesaj olub. Azərbaycan məğlub ölkəyə və separatçılara siqnal göndərib ki, özlərini yaxşı aparmasalar, imzalarına hörmət etməsələr, nəticə onlar üçün acınacaqlı olacaq.

Ümumiyyətlə, son aylarda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların xeyli intensivləşdiyi zamanda revanşistlər yenə də aranı qarışdırmağa cəhd edirlər. Laçın sərhəd-buraxılış məntəqəsində baş verən silahlı toqquşma, hərbi qulluqçumuzun yaralanması, müxtəlif istiqamətlərdə mövqelərimizin atəşə tutulması bunu təsdiqləyən reallıqdır.

Sülh danışıqlarına gəlincə, təkcə may-iyun aylarında həm ölkə liderləri, həm XİN başçıları arasında Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda keçirilən görüşlərdəki müzakirələr, əldə olunan razılıqlar onu deməyə əsas verir ki, tərəflər sülhə bir qədər də yaxınlaşıblar. Bu ilin sonuna qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına ümidlər böyükdür.



# Ədaləti Azərbaycan təmin edir

Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı da bu məsələyə toxunaraq vurğulamışdır ki, Ermənistan və Azərbaycan arasında təxminən otuz ildir davam edən silahlı münaqişənin başa çatması və hər iki dövlətin bir-birinin suverenliyinə, ərazi bütövlüyünə, sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət etmək öhdəliyi götürməsi ilə iki ölkə öz müstəqilliklərini bərpa etdikdən sonra ilk dəfə olaraq sülh əlçatandır.

Kişineuda Prezident İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel arasında keçirilən üçtərəfli, eləcə də Almaniya Kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makronun da qatıldığı beştərəfli qeyri-rəsmi görüşü də sülh prosesinin tərkib hissəsi kimi dəyərləndirmək olar. Düzdür, bu görüşlərdə heç bir qərar qəbul olunmasa da, tərəflər bunu Brüsseldə keçiriləcək növbəti toplantıya yaxşı hazırlıq kimi qiymətləndirir.

Bəllidir ki, Azərbaycan qalib tərəf kimi Ermənistana münaqişədən sonrakı normallaşma gündəliyini təklif edib. Hər iki tərəf bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və dövlət sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və onlara hörmətə əsaslanan dövlətlərarası münasibətlərin çərçivəsini təşkil edəcək ikitərəfli sazişin mətni üzərində danışıqlar aparır. Ermənistanda bir ara müharibə çağırışı hökm sürürdüsə, bu gün ermənilər dərk edirlər ki, müharibə onları xilas edə bilməyəcək. Məhz buna görə ermənilər danışıqlar masasında oturmağa məcburdurlar. İndiki reallıq budur ki, ermənilər artıq sülh müqaviləsinin yeganə çıxış yolu olduğunu anlayırlar.

Müharibənin qalib tərəfi olmasına rəğmən Azərbaycan məğlub ölkəyə qurtuluş yolu, hər iki tərəfi qane edəcək sülh modeli təklif edir. Hayastana bəlli olmalıdır ki, boş yerə Qarabağın erməni əhalisi üçün ayrıca "status" iddiasını irəli sürməyin heç bir mənası yoxdur.

Azərbaycan Prezidenti bununla bağlı son sözünü mayın 28-də Laçında bəyan edib. İlham Əliyev deyib ki, "miatsum"un, separatizmin "kitabı bağlanıb", müstəqillik xülyası da statusun dalınca cəhənnəmə göndərilib. Bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi Azərbaycanın tarixi, hüquqi torpağıdır. Yaxşı olar ki, bu reallığı orada yaşayan erməniəsilli vətəndaşlar da tezliklə başa düşsünlər və xam xəyallardan ayılaraq özləri gəlib Azərbaycan bayrağı altında yaşamaq üçün addım atsınlar.

Qarabağın erməniəsilli sakinləri də, Ermənistan əhalisi də yaxşı bilir ki, İlham Əliyev nə deyirsə, onu mütləq tezliklə gerçəkləşdirir. Qalib komandan bunu müharibədən öncə də, sonra da nümayiş etdirdiyi siyasətlə sübuta yetirib. Əgər indi Azərbaycan Prezidenti ermənilərə belə şans, imkan verirsə, haylar mütləq bundan yararlanmalıdırlar, sonra gec olacaq.

Ötən həftə Beynəlxalq Ədalət Məhkəməsi İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Beynəlxalq Konvensiyanın tətbiqi ilə bağlı Ermənistanın Azərbaycana qarşı məhkəmə işi üzrə 2023-cü il 22 fevral tarixli qərarında dəyişiklik edilməsi məqsədilə Hayastanın tələbini yekdilliklə rədd etməsi də ermənilərə bir mesaj oldu. Məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd nəzarət buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarı bir daha həqiqəti göstərdi.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Neokolonializm, müstəmləkəçilik, dini ayrı-seçkilik…





Ötən həftə Bakıda keçirilmiş Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun "Qoşulmama Hərəkatı: meydana çıxan çağırışlarla mübarizədə birgə və qətiyyətli" mövzusunda nazirlər görüşündə Prezident İlham Əliyev bir daha dünyaya bəyan etdi ki, Azərbaycan neokolonializm meyillərinin artmasından olduqca narahatdır.

Dekolonizasiya prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı keçmişin bu utancverici mirasına qarşı qətiyyətlə mübarizə aparmalı və onun tamamilə aradan qaldırılmasına öz töhfəsini verməlidir.

Neokolonializmi hələ də davam etdirən ölkələrdən birinin Fransa olduğunu deyən dövlət başçısı bildirib ki, Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Fransa Qəmər adalarının Mayot adası üzərində suverenliyinə, həmçinin Yeni Kaledoniya xalqının, o cümlədən özünün digər dənizaşırı icma və ərazilərində yaşayan xalqların hüquqlarına hörmət etməlidir.

İlham Əliyev, həmçinin qeyd edib ki, Fransanın soyqırımlarla dolu hakimiyyəti dövründə 1,5 milyona yaxın əlcəzairli qətlə yetirilib: "Hələ də Paris muzeyində əlcəzairli azadlıq döyüşçülərinin kəllə sümükləri müharibə qənimətləri kimi saxlanılır. Bu, utancverici və iyrənc hərəkətdir. Biz Fransa Prezidenti Emmanuel Makrondan həmin qəhrəmanların qalıqlarını Əlcəzairə təhvil verməsini tələb edirik".

Digər dövlətlərin daxili işlərinə qarışan, "haqq" və "ədalət"dən danışan Fransanın yürütdüyü müstəmləkəçilik siyasəti göz qarşısındadır. Avropa ölkəsi dini, irqi ayrı-seçkilik siyasəti yürüdərək əsrlər boyu digər xalqların haqlarını tapdalayıb.

Əslində uzun illər ərzində Azərbaycan və Ermənistan münasibətlərində işğalçı dövlətə havadarlıq etməsi də bu ölkənin yürütdüyü siyasətdən xəbər verir.

Haqq və ədalətdən, beynəlxalq hüquqdan danışan Avropa ölkəsinin yürütdüyü siyasəti isə ən yaxşı və qətiyyətli şəkildə Prezident İlham Əliyev dünyaya çatdırdı.

Ölkə rəhbəri vurğuladı ki, Fransa öz müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə və soyqırımı aktlarına görə Qoşulmama Hərəkatına üzv olan Afrika, Cənub-Şərqi Asiya ölkələrindən və digər ölkələrdən üzr istəməlidir.

## Fransa ona aidiyyəti olmayan bölgələrdə də gərginlik yaratmaq üçün cəhdlər edir

Milli Məclisin deputatı Aydın Mirzəzadə qəzetimizə açıqlamasında bildirib ki, Fransa Prezidenti Emmanuel Makronun apardığı xarici siyasət çox mürəkkəbdir.

Fransa BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olaraq dünyada beynəlxalq hüquq normalarının, ədalətin, sabitliyin və sülhün qorunmasına birbaşa məsuliyyət daşıyan ölkə hesab edilir: "Bununla belə Fransanın hərəkətləri dünyanın bu və ya digər bölgəsində gərginliyin yaranmasına səbəb olur. Fransa tarixdə böyük müstəmləkə əraziləri olan ölkə kimi tanınır. Ancaq XIX əsrin sonu və XX əsrdə tədricən müstəmləkələrdən qurtuldu və onlarla yaxşı münasibətlər qurmağa söz verdi. Lakin vaxtaşırı Fransanın həmin ölkələrin daxili işlərinə qarışdığı, böyük qətliamlar törətdiyi aydın məsələdir. Digər tərəfdən, Fransa ona heç bir aidiyyəti olmayan müxtəlif bölgələrdə də gərginlik yaratmaq üçün cəhdlər edir. Bunlardan biri də Cənubi Qafqaz regionudur".

Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq siyasətinin uzun müddət ölkəmiz üçün böyük problemlər yaratdığını deyən A.Mirzəzadə ərazisi kiçik və resursları az olan ölkənin Azərbaycan kimi dövlətin torpaqlarını 30 il işğalda saxlamasının bir çox səbəbləri olduğunu və Fransanın daim onlara siyasi, maliyyə, təşkilati dəstək göstərdiyini vurğulayıb. Vətən müharibəsi dövründə Fransa Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmə xəttinə qarşı açıq şəkildə çıxış etdi. Azərbaycanı Zəfər yürüşündən çəkindirmək üçün min bir cəhd göstərdi: "Makron az qalmışdı əlinə silah alıb döyüş bölgəsində Azərbaycan əsgərinə qarşı vuruşsun. Son dövrlərdə Fransa prezidentinin Azərbaycanla bağlı qərəzli fikirlərinin, tarixi təhrif edən, bəzən isə tam yalan məlumatların beynəlxalq ictimaiyyətə çatdırılmasının şahidi oluruq. Bu, əlbəttə ki, Fransanın nüfuzunun qorunub saxlanmasına xidmət etmir. Azərbaycan dəfələrlə Fransaya apardığı siyasətə görə etirazını bildirib. Bu ölkəylə olan münasibətlərinin pisləşməsində maraqlı olmadığını və rəsmi Parisi bu addımdan çəkindirməyə çalışıb. Görünən odur ki, Fransa öz cəhdlərindən, qərəzli mövqeyindən əl çəkmir".



Deputat bildirib ki, Fransa hətta fransızdilli ölkələrin birləşdiyi Frankofoniya təşkilatında vaxtaşırı Azərbaycan əleyhinə qətnamələrin qəbul edilməsinə də cəhdlər edib. Ancaq Azərbaycanın ədalətli mövqeyi orada qətiyyətlə qorunub və belə qərarların qəbul edilməsinin qarşısı alınıb. Dövlət başçımız Azərbaycana səfər edən Albaniya Prezidentinə də vaxtilə Albaniyanın bu təşkilatda bizi müdafiə etdiyinə görə təşəkkürünü bildirdi. Makronun bu siyasəti Fransada bəzi siyasi dairələr tərəfindən də qəbul edilmir. Fransa tarixində heç vaxt belə uzunmüddətli gərgin daxili qarşıdurmalar baş verməyib. Bu, onu göstərir ki, xaricdə gərginlik yaratmağa çalışan hakimiyyət heç vaxt öz ölkəsində sülhü bərqərar edə bilmir: "Prezident İlham Əliyev dəfələrlə Fransanı statusuna uyğun olaraq təmkinli davranmağa və Cənubi Qafqaz regionu ilə bağlı düzgün mövqe tutmağa çağırıb. Cənab Prezident Qoşulmama Hərəkatının nazirlər görüşündə Fransanın tarixən apardığı siyasətin qaranlıq səhifələrinə də diqqət yetirdi və törətdiyi qətliamlara görə üzr istəməyə çağırdı. Əlbəttə, Azərbaycan dövlət başçısının belə cəsarətli mövqeyi onun beynəlxalq hüquqa söykəndiyini göstərir. Ümid edirəm ki, gec-tez, ilk növbədə, Fransanın beynəlxalq hüquq, demokratiya, insan hüquqlarına hörmətlə yanaşmaq qaydalarına riayət etməsinin vacibliyi başa düşüləcək".

## Hər zaman müstəmləkəçilik siyasəti həyata keçirən dövlət

Milli Məclisin deputatı Arzu Nağıyev isə bildirib ki, bir müddət əvvəl Fransa polisi tərəfindən əlcəzairəsilli 17 yaşlı gəncin öldürülməsi bu ölkənin apardığı ayrı-seçkilik siyasətini ortaya qoyur. Fransa özünü demokratik ölkə kimi göstərmək istəsə də, tarixdə hər zaman müstəmləkəçilik siyasəti həyata keçirən bir dövlət olub.

Deputat bildirib ki, Fransa Əlcəzair, Qvineya, Qabon, Vyetnam, Tunis, Kambocada müstəmləkəçilik siyasəti həyata keçirib: "Müstəmləkəçilik siyasətinin əsl mahiyyətini pərdələməyə çalışan bu ölkə zəbt etdiyi ərazilərin coğrafiyasını 1946-cı ildən "Fransız ittifaqı", 1958-ci ildən isə "Fransız birliyi" adlandırıb. Fransanın Əlcəzairdə törətdiyi hadisələr də unudulmamalıdır. Fransanın Əlcəzairi işğalı dövründə çoxsaylı əlcəzairli öldürülüb".

A.Nağıyev qeyd edib ki, Fransa ölkələrin hərbi, iqtisadi, siyasi və mədəni varlıqlarını məhv edərək onları öz müstəmləkəsinə çevirib, nəticədə ərazilərini genişləndirib: "Rəsmi Paris bu siyasətinin bədəlini hələ də ödəyir. Çünki keçmiş müstəmləkələrdəki miqrantların nəvələri indi Fransada yaşayır və onlar ölkədə çoxluq təşkil edən elektoratlardır. Onların öz haqlarını tələb etmələri isə Makronun ölkəni idarə etməsini çətinləşdirir".

Fransanın Ermənistanda müstəmləkəçilik siyasəti həyata keçirməklə Cənubi Qafqaza daxil olmaq istədiyini vurğulayan deputat Prezident İlham Əliyevin Qoşulmama Hərəkatının Bakıda keçirilmiş nazirlər görüşündə bu ölkənin vaxtilə müstəmləkə halına saldığı ölkələrdən üzr istəməli olduğunu dediyini xatırladıb. Fransa ölkələrin daxili işlərinə qarışmamalı və Ermənistandan bir rıçaq kimi istifadə etməkdən əl çəkməlidir. "Fransa öz ərazisində cəmləşmiş nəhəng erməni şirkətlərindən əldə etdiyi mənfəətə görə Azərbaycana qərəzli mövqedə dayanır. Daim ölkəmizə qarşı əsassız qətnamələrin qəbul edilməsinə cəhdlər göstərir. Amma bu cəhdlər nəticəsiz qalacaq. Dünyada qlobal güc beynəlxalq hüquqdan üstün olsa da, bəzi ölkələr bu neqativ tendensiyanı məhv edir, öz daxili və xarici siyasətlərini azad şəkildə formalaşdırır. Öz gücü hesabına torpaqlarını işğaldan azad edən Azərbaycan da müstəqil daxili və xarici siyasət yürüdür. Beləliklə, müstəmləkəçi, işğalçılıq siyasətini dəstəkləyən Fransa ilk növbədə öz daxili siyasətinə diqqət yetirməli, dini, irqi ayrı-seçkiliyi dəstəkləyən siyasətindən əl çəkməlidir", - deyə deputat əlavə edib.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Erməni yalanları hüquqi müstəvidə iflasa uğrayır

### Ermənistanın Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı iddialarının rədd edilməsi ciddi siyasi nəticələr doğuran hadisədir

**Xəbər verildiyi kimi, Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın Laçında Azərbaycana məxsus sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd edib.**
**Beləliklə, Ermənistanın Azərbaycana qarşı qaldırdığı növbəti əsassız iddiası beynəlxalq səviyyədə iflasa uğrayıb. Məhkəmə həmin ərazidə buraxılış məntəqəsi yaratmağı Azərbaycanın suveren hüququ kimi təsdiq edib. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.**





## Suveren hüquqlarımız qətiyyətlə təmin edilir

Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib ki, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın Laçındakı sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbini yekdilliklə rədd etməsi beynəlxalq hüququn təntənəsi olmaqla bərabər, ciddi siyasi nəticələr doğuran hüquq hadisəsidir: "Məhkəmə bu qərarı ilə bir daha qəti mövqe ifadə etdi ki, Azərbaycanın Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi yaratması beynəlxalq hüquqla tanınır. Beynəlxalq hüququn ən az üç prinsipinə əsasən, hər bir dövlət digər ölkələrin suverenliyinə, yəni digər dövlətlərin müdaxiləsi olmadan öz ərazilərində hakimiyyətini həyata keçirmək hüququna hörmətlə yanaşmaq məcburiyyətindədir. "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunun 12-ci maddəsinə əsasən, şəxslər, nəqliyyat vasitələri, yüklər müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının dövlət sərhədindən buraxılış məntəqələrindən buraxılırlar. Yəni dövlət sərhədi həm dövlətdaxili, həm də beynəlxalq hüquqla dövlət suverenliyinin ərazi hüdududur".

Deputat qeyd edib ki, Beynəlxalq Ədalət Məhkəməsi bu prinsipləri görməzdən gələ bilməzdi: "Azərbaycan Xarici İşlər Nazirliyinin də yaydığı bəyanatda ifadə olunduğu kimi, "Biz Məhkəmənin Azərbaycanın öz sərhədlərinə nəzarət etmək hüququnu bir daha təsdiq edən və Ermənistanın sərhəd nəzarət-buraxılış məntəqəsinin aradan qaldırılması ilə bağlı tələbinin əsassız olduğunu sübut edən qərarını alqışlayırıq". Bu qərar eyni zamanda mühüm siyasi reallığı - aylardır bu mövzuda anti-Azərbaycan kampaniyası aparan Fransa, Avropa Parlamenti və bir sıra digər beynəlxalq subyektlərin arqumentlərinin nə qədər çürük, özlərinin isə nə qədər qərəzli, beynəlxalq hüquqa hörmət etməyən subyektlər olduğunu meydana çıxardı".

Bəhruz Məhərrəmovun sözlərinə görə, bir daha aydın oldu ki, əslində, İrəvan beynəlxalq məhkəmə instansiyalarındakı mümkün hüquqi imkanlardan sui-istifadə etməklə məğlubiyyətdən sonra düşdüyü çıxılmaz vəziyyətdə daxili auditoriyanın diqqətini yayındırmağa çalışır: "Eyni zamanda manipulyasiya etməklə Beynəlxalq Ədalət Məhkəməsini informasiya müharibəsində Azərbaycan əleyhinə alətə çevirmək istəyir. Lakin bu kimi mübarizə üsulları ilə İrəvan özü elə indidən məğlubiyyətə məhkumdur. Azərbaycan isə suveren hüquqlarını istənilən halda tam şəkildə həyata keçirəcək. Ermənistanın 30 il boyunca davam etmiş işğal, təcavüz siyasətinin, müharibə cinayətlərinin nəticələrinə görə bu dövlətin məsuliyyətə cəlb edilməsi istiqamətində bütün zəruri tədbirləri davam etdirəcək".

## Ermənistana növbəti hüquqi zərbə

Milli Məclisin deputatı Azər Badamov deyib ki, Beynəlxalq Ədalət Məhkəməsi uzun illər Azərbaycana qarşı ədalətsiz qərarlar qəbul etsə də, bu dəfə Ermənistanın Laçın yolu ilə bağlı qaldırdığı iddiasını yekdilliklə rədd edib: "Azərbaycan hər zaman ədalətin tərəfində olub, atdığı bütün addımları beynəlxalq hüquqa cavab verib. Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsinin qurulması da Azərbaycanın suveren hüququdur. Bu məntəqənin yaradılması ərazimizə qeyri-qanuni olaraq silah, hərbi texnika göndərilməsinin dayandırılması zərurətindən yaradılıb. Nəzərə almaq lazımdır ki, Ermənistan həmin ərazilərdə Rusiya sülhməramlılarının bayrağı altında Qarabağda qalmış qanunsuz silahlı birləşmələrinin təminatını və canlı qüvvəsinin rotasiyasını həyata keçirirdi. Ona görə də nəzarət-keçid məntəqəsi yaratmaqla ərazilərimizə qanunsuz daşınmaların qarşısını almaq bizim haqqımız idi".

Deputat bildirib ki, buraxılış məntəqəsinin yaradılması ilə Qarabağda yaşayan ermənilərin Laçın yolu vasitəsilə hərəkətinə heç bir məhdudiyyət qoyulmayıb: "Qarabağda yaşayan ermənilər həmin məntəqədə yalnız pasportlarını təqdim etməklə heç bir maneə ilə qaşılaşmadan sərhədi keçə bilirlər. Təbii ki, sərhəd nəzarət-buraxılış postunun yaradılması beynəlxalq hüquqa uyğundur, burada heç bir beynəlxalq norma pozuntusu yoxdur. Beynəlxalq Ədalət Məhkəməsi də bütün bu məsələləri araşdırıb və Laçın nəzarət-buraxılış məntəqəsinin fəaliyyətində hər hansı bir nöqsanın olmadığını bildirib".

Azər Badamov vurğulayıb ki, Beynəlxalq Ədalət Məhkəməsinin qərarı Ermənistan və onun havadarlarına böyük zərbədir: "Fransa başda olmaqla Ermənistanın bütün dayaqları Laçın yoluna görə Azərbaycanı beynəlxalq platformalarda günahlandırırdı. Bu qərardan sonra onların dili ağızlarında qurumalıdır. Qarabağın qanunsuz erməni silahlılarından təmizlənməsi prosesi də beynəlxalq hüquqa uyğundur. Hesab edirəm ki, növbəti addımımız Qarabağdakı qanunsuz erməni silahlılarının neytrallaşdırılması ilə bağlı olmalıdır. Orada yaşayan erməniəsilli sakinlərimizin hüquq və təhlükəsizliklərinin təmin edilməsi isə Azərbaycanın daxili işidir. Beləliklə, Azərbaycan ermənilərin yaşadıqları ərazilərimizdə də dövlət quruluşunun bərpasına yavaş-yavaş yaxınlaşır".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***





# Tarixin izi ilə





● Daş yaddaşımız

## İşğaldan azad olunmuş rayonlarda Azərbaycanın mədəni irsi bərpa olunur

**Məmləkətimizin dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri olduğunu xalqımızın mədəni irsinin zənginliyi də təsdiq edir. Azərbaycanın hər bölgəsində tariximizin nişanələri qalmaqdadır. Həmin abidələr bizə əcdadlarımızın həyat tərzindən, düşüncələrindən soraq verir.**






Bir həqiqət də var ki, bu qədim abidələrin bir çoxu yalnız ölkə deyil, dünya əhəmiyyətlidir. Onların tarixini öyrənməklə ilk bəşər övladlarının yaşam tərzi, arzuları barədə məlumat almaq mümkündür. Bu baxımdan, qədim abidələrə həssaslıqla yanaşmaq hər bir insanın mənəvi borcudur. Ancaq Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Qarabağ və Şərqi Zəngəzur ərazilərini otuz ilə yaxın işğal altında saxlayan erməni vandalları tarixə qənim kəsildilər.

### Yağı düşmənin talan etdiyi qədim abidələr

1990-cı illərdə Ermənistan tərəfindən işğal olunanda Qarabağ və Şərqi Zəngəzur ərazilərində 13 dünya əhəmiyyətli (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli (119 memarlıq və 173 arxeoloji) və 330 yerli əhəmiyyətli (270 memarlıq, 22 arxeoloji, 23 bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi) tarix və mədəniyyət abidələri vardı. Eyni zamanda işğal olunmuş ərazilərdə 40 mindən artıq eksponatın toplandığı 22 muzey, 4,6 milyon kitab fondu olan 927 kitabxana, 808 klub, 4 teatr və 2 konsert salonu, 31 məscid, 9 tarixi saray, 8 mədəniyyət və istirahət parkı, 4 rəsm qalereyası, 85 musiqi məktəbi mövcud idi. Qəsbkar Ermənistanın beynəlxalq konvensiyaları, xüsusilə "Silahlı münaqişə zamanı mədəni sərvətlərin mühafizəsi haqqında" 1954-cü il Haaqa Konvensiyasını və ona dair protokollarını, həmçinin UNESCO-nun "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" Konvensiyasını heçə saydı. Vandallar Azərbaycanın ölkə və dünya əhəmiyyətli mədəniyyət abidələrini vəhşicəsinə taladılar, məhv etdilər.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatı nəticəsində başlayan Vətən müharibəsi Azərbaycanın qələbəsi ilə başa çatdı. 44 gün davam edən müharibədə qəhrəman Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq otuz ilə yaxın işğal altında qalan torpaqlarımızı azadlığa çıxardı. Təcavüzkar Ermənistan tərəfindən həmin ərazilərin xarabalığa çevrildiyini təkcə Azərbaycan xalqı yox, bütün dünya gördü. Erməni vandalları işğal illərində Qarabağda və Şərqi Zəngəzurda tarixi əhəmiyyətli abidələri qarət etmiş, talamış, maddi və mənəvi dəyəri böyük olan əşyaları daşıyıb Ermənistana apamışdılar. Bununla da kifayətlənməmişdilər. Qarabağdan və Şərqi Zəngəzurdan əsl sakinlərinin - azərbaycanlıların izlərini silmək üçün həmin abidələri uçurub dağıtmış, yerləyeksan etmiş, xeyli hissəsini yandırmışdılar. İlk insan məskənlərindən olmuş məşhur Azıx və Tağlar mağaraları, Qaraköpək, Üzərliktəpə kurqanları Ermənistan silahlı qüvvələri tərəfindən hərbi məqsədlər üçün istifadə olundu, qəsdən dağıdıldı. Xocalıda, Ağdamda, Ağdərədə, Füzulidə, Cəbrayılda kurqanlar, eləcə də işğal olunmuş Şuşa, Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Füzuli rayonlarının ərazilərində qəbiristanlıqlar, türbələr, məscidlər, məbədlər, Qafqaz Albaniyasına məxsus abidələr və digər milli irsimizə qarşı ermənilər vandallıq törətdilər.

İşğalçılar beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça Muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, Laçın rayonundakı Ağoğlan məbədi, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və başqa mədəniyyət ocaqlarının, rəsm qalereyalarının dəyərli ekspozisiyaları da qarət olundu, talan edildi. Təcavüzkarlar kitabxanaları yandırdılar, misli-bərabəri olmayan əlyazma nümunələrini məhv etdilər. Vəhşi, məkrli ermənilər abidələrimizin bir çoxundan isə müxtəlif məqsədlər, hətta tövlə kimi də istifadə etmişdilər.

### Mədəni irsə vandal münasibət dünya irsinə qarşı təhlükədir

Vətən müharibəsindən sonra Azərbaycan dövləti işğaldan azad olunmuş ərazilərində geniş və sürətli tikinti-bərpa, quruculuq işlərinə başladı. Prezident İlham Əliyev xalqı əmin etdi: "Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq".

Artıq bir sıra istiqamətlərdə, xüsusən regionun enerji ilə təminatı, yol infrastrukturunun qurulması, dəmir yolu xətlərinin və hava limanlarının tikintisi sahəsində ciddi addımlar atılıb. İşğal nəticəsində böyük ziyan görmüş Qarabağda və Şərqi Zəngəzurda abidələrin, memarlıq irsinin bərpası və qorunması istiqamətində də hazırda çox mühüm, olduqca əhəmiyyətli işlər həyata keçirilir.

Hələ 2020-ci il oktyabrın 29-da Prezident İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarənin təşkili haqqında" fərman imzaladı. Fərmana uyğun olaraq, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində tarixi obyektlərin və mədəniyyətin ilkin inventarlaşdırılması və mühafizəsi məqsədilə abidələrin və mədəniyyət müəssisələrinin monitorinqi aparıldı. Görülən tədbirlər çərçivəsində dövlət qeydiyyatında olan 312 tarix və mədəniyyət abidəsinin monitorinqi zamanı bu ərazilərdə dövlət qeydiyyatına alınmayan, tarixi, memarlıq və arxeoloji dəyərə malik 106 abidə müəyyənləşdirildi. Monitorinq işğal dövründə Ermənistan Respublikasının tarix və mədəniyyət abidələri ilə bağlı qanunsuz əməllər törətdiyi ərazilərin vəziyyətini müəyyən etməyə imkan yaratdı. Müəyyənləşdirildi ki, otuz ilə yaxın Ermənistanın işğalında qalmış ərazilərimizdə məscidlər, mədrəsələr, məbədlər nəinki məhv edilmiş, bir çox hallarda başqa məqsədlər üçün istifadə olunmuşdur. Pənahəli xanın (XIX əsr) və Mehdiqulu xanın Ağdam şəhərində yerləşən məqbərələri dağıdılmış, abidələrə işğalçı Ermənistan tərəfindən ciddi ziyan dəymişdir. İbrahimxəlil xanın məzarı da (XIX əsr) tamamilə dağıdılmışdır. Əlbəttə ki, bunlar yalnız erməni vandallarının ziyan vurduqları, yer üzündən silməyə çalışdıqları tarixi abidələrimizdən bir qismidir.

Zəngin mədəni irsə vandal münasibət bütün dünya irsi üçün təhlükədir. Qeyd etdiyimiz kimi, işğaldan azad edilmiş ərazilərimizdə ölkə və dünya əhəmiyyətli çox dəyərli tarix-mədəniyyət abidələri var. Xudafərin körpüləri, Şuşa qalası, Azıx mağarası, Gəncəsər, Xudavəng monastrları, Qutlu Musa türbəsi, Azıx mağarası Qarabağ və Şərqi Zəngəzurun dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Artıq onlardan bəziləri, o cümlədən Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Saatlı məscidi bərpa olunub. Aşağı və Yuxarı Gövhər ağa, Ağdam Cümə məscidlərinin bərpa işləri isə eyni diqqət və həssaslıqla həyata keçirilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Yadigarlarımız

## Kimliyimizin silinməz möhürü

### Laçındakı 300-ə yaxın mədəni və memarlıq abidəsi qədim tariximizə işıq saçır

**Azərbaycan çoxəsrlik tarixə malik maddi mədəniyyət nümunələri ilə zəngindir. Əsrlərin sınağından keçmiş, tarixi kimliyimizin silinməz möhürü olan həmin abidələr, babalarımızın bizə qoyub getdiyi qiymətli əmanətlər bu torpağın əsl sahibi olduğumuzu sübut edən yadigarlardır.**

Ermənistan ordusunun işğal edib dağıntılara məruz qoyduğu Laçın Azərbaycanın ən qədim yaşayış məskənlərindən biri, ən çox tarixi mədəni abidəmizin saxlanc yeridir. Rayon ərazisində 300-ə yaxın abidə, onlarca kurqan, arxeologiya baxımından faydalı olan çoxlu qəbirüstü türbə, stellalar, at, qoç fiqurları, süjetli daşlarla zəngin tarixi əhəmiyyətli memarlıq inciləri mövcuddur. Bu ərazidə olan abidələrin əksəriyyəti Qafqaz Albaniyası dövrünün yadigarlarıdır. Mütəxəssislərin fikrinə görə, Laçın rayonunda olan Qafqaz Albaniyası dövrünə aid abidələrin bir çoxu bizim eranın xristianlıqdan əvvəlki mərhələsinə məxsusdur.

Qədim yurd yerlərimizdən olan Laçın islam dövrü abidələri ilə də zəngindir. Bu abidələrin bir qrupu at və qoç təsvirli məzar daşlarından ibarətdir. Məzar daşlarının bu formada hazırlanması islamdan əvvəlki dini ayinlərə olan inamın saxlanması baxımından insanların öz keçmişini yaşatdığını sübut edir. Xalqımız əsrlər boyu bu torpağın varisləri və sahibləri olduqlarını kitabələr vasitəsilə indiki günümüzə qədər çatdırıblar. Müxtəlif təsvirli məzar daşlarının Qarabağda XV əsrin sonlarından XIX əsrin əvvəllərinə kimi hazırlandığını nəzərə alsaq, bəhs edilən bölgədə bu tip qəbirlərin üç yüz ildən artıq bir tarixi olduğunu görürük.

Laçının Güləbird və Malıbəyli kəndləri ərazisindəki məzar daşları XVI-XVII əsrlərə aid olmaqla üzərindəki damğa və işarələr baxımından olduqca böyük maraq doğurur. Bu epiqrafik materiallara və digər təsviri incəsənət motivlərinə əsasən Qarabağ abidələrinin formalaşmasında qədim türk tayfalarının böyük rol oynaması faktı ortaya çıxır. Rayonun Malıbəyli kəndinə gedən yolun sol tərəfində yerləşən alban məbədlərinin yanında üç at təsvirli məzar daşı abidələri vardır. Birinci daşda hicri qəməri tarixi ilə 977-ci il (miladi 1569-1570) qeyd olunub. İkinci və üçüncü daşın sol tərəfində günəş və insan təsviri çəkilmiş və insanın sağ əlində isə quş rəsmi diqqətimizi cəlb edir. At fiqurunun ayaq hissəsində ərəbcə nəsx xətti ilə yazılmış kitabədə belə deyilir: "Onun sahibi Yəhyadır". Hər üç at fiqurunun sol arxa ayağındakı aşağı hissəsində də eyni damğalar vurulub. Texniki hazırlanma xüsusiyyətləri baxımından bu damğaların oğuz türkləri və azərbaycanlılara aid olması bir daha sübut edir ki, bölgə tarixən oğuz türklərinin vətəni olub.

Rayonun Güləbird kəndində at fiqurlu qəbir daşları da var ki, onlar da forma və məzmun baxımından XVI əsr Malıbəyli abidələrinin analoji nümunəsidir. At fiqurlu birinci abidənin sol tərəfindəki kitabədə Qurani-Kərimin "ər-Rəhman" surəsinin 26-27-ci ayələri həkk olunub: "Yer üzündə olan hər kəs fanidir. Ancaq əzəmət və kərəm sahibi olan Rəbbinin zatı baqidir (əbədidir)". "Qorçi oğlu rəhmətlik Məhərrəmindir. Ölümü hicri qəməri tarixi ilə 1022-ci il." (miladi 1613-1614-cü il). İkinci at fiqurlu abidədə isə yalnız tarix yazılıb: "Ölüm tarixi 1078-ci hicri qəməri ili" (miladi 1667-1668-ci il). Buradakı qoçşəkilli başqa bir məzar daşında "1221-ci hicri qəməri ili" (miladi 1806-1807-ci il) tarixi həkk edilib.

"Ağoğlan" məbədi



"Məlik Əjdər" türbəsi



At-qoç təsvirli abidə



Laçın rayonundakı Ağoğlan məbədi yaxınlığında XVI əsrə aid sənduqə və at fiqurlu qəbir daşları da vardır. Bu qəbir daşlarının paleoqrafiyası, mətn kitabələri, relyefli təsvirləri Azərbaycan ərazisində dağətəyi rayonlarda kalliqraf ustaların daşlar üzərindəki işarələrlə özünəməxsus məktəb yaratdığını göstərir.

V-VI əsrlərə aid alban monastırı olan "Ağoğlan" məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olmuş, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınmışdır. Köhnə divarlar üzərində yeniləri tikilsə də, abidə ilk bünövrəsini olduğu kimi saxlamış və alban dövrü memarlığının möhtəşəm nümunələrindən birinə çevrilmişdir.

"Ağoğlan" məbədi vaxtilə "Qaranquş qəsri"də adlandırılıb. Bununla bağlı rəvayətdə deyilir ki, bir gün günorta yeməyi vaxtı bir qaranquş aşpazın başına fırlanıb, onun camaata yemək verməsinə mane olmağa çalışırmış. Ətrafdakı insanlar quşun bu hərəkətinə maraqla tamaşa edir, lakin heç nə anlamırmışlar. Anidən qaranquş özünü qaynar qazanın içinə atıb öldürür. Bundan qəzəblənən aşpaz yeməyi kənara boşaldarkən qazanda ilan ölüsü olduğunu görür. Camaat isə heyrətdən donub qalır.

Qəsrin sahibi xilaskar quşun ölüsünü təntənə ilə tikilinin yanında basdırır, qəsri də onun şərəfinə "Qaranquş qəsri" adlandırır. Lakin zaman ötdükcə qəsrin bu adı unudulmuş və məbədə çevriləndən sonra isə xalq arasında həmin abidə tikdirənin şərəfinə "Ağoğlan" kimi tanınmağa başlanmışdır.

1992-ci ildə erməni qəsbkarları ərazini işğal etdikdən sonra "Ağoğlan" məbədini özününküləşdirməyə başlamışlar. Onlar məbədi təmir etmək adı altında abidənin divarları üzərində bir neçə daş yazını, həmçinin xeyli sayda alban dövrünə aid ornament və rəmzləri tamamilə silmiş, formalarını dəyişdirmişlər. Məbədin, guya, xristianlığın qriqoryan məzhəbinə məxsusluğunu göstərən 26 yazı lövhəsini abidənin divarlarının müxtəlif yerlərinə bərkitmişlər.

Bununla kifayətlənməyən ermənilər kompleksin ümumi giriş qapısının önündə İrəvandan gətirilmiş xaçdaşlar basdırmış, binanın fasadını kirəmid və dəmirlə əvəzləmişlər. 2007-ci ildə Ermənistan hökumətinin tapşırığı ilə erməni yepiskopları daxili qərarla abidəyə erməni qriqoryan kilsəsi statusu verməklə işğal olunmuş ərazilərdə Azərbaycan mədəniyyətinə və tarixinə qarşı soyqırımı siyasəti yürütdüklərini faktlarla təsdiq etmiş oldular.

Həmçinin Laçın rayonunda Məlik Əjdər türbəsi, Mirik kəndində XV əsrə aid Alban məbədi, Minkənddə XV əsrə aid məbəd, Qarıqışlaq kəndində XI əsrə aid Dəmirovlu piri, Ərikli kəndində XVI əsrə aid Qarasaqqal, Cicimli kəndində 1790-1791-ci ildə çaylaq daşından düzbucaqlı planda tikilmiş məscid binası da olmuşdur.

Malıbəyli, Güləbird, Cicimli kəndlərində at heykəlli qəbir daşlarında günəş simvolunun və əlində quş tutmuş insanın təsvirləri vardır. Əsatirlərdən məlumdur ki, Humay quşu qədim türk xalqlarının tanrısı olmuşdur. Mütəxəssislər hesab edirlər ki, abidələrin üzərində humay quşunun təsviri, güman ki, abidələri dağılmaqdan qorumaq məqsədilə işlənilib.

Və nəhayət, 2020-ci ilin sentyabrında başlanan Vətən müharibəsində rəşadətli, qəhrəman Azərbaycan əsgəri simurq quşu kimi illərdir darda qalan torpaqlarımızı, babalarımızdan bizə miras qalan bu tarixi yadigarlarımızı da azad etdi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Dini məbədlərimiz

## Yenidən həyat verilən Saatlı məscidi

**Erməni vandallarının ciddi ziyan vurduğu dini abidələrdən biri də Şuşadakı Saatlı məscididir.**

Saatlı məscidi Qarabağda bir neçə monumental dini və mülki tikilinin, o cümlədən Şuşadakı Aşağı və Yuxarı Gövhər ağa məscidləri, Ağdamdakı Cümə məscidi və Bərdədəki İmamzadə türbəsinin müəllifi olan Azərbaycan memarı Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında 1883-cü ildə inşa edilmişdir.

Araşdırmalara görə, Saatlı məscidinin yerində 1759-cu ildə Qarabağ xanı Pənahəli xanın tikdirdiyi məscid və mədrəsə olub ki, həmin mədrəsədə də Molla Pənah Vaqif dərs deyib. Saatlı məscidində sonuncu dəfə XX əsrin 80-ci illərində təmir-bərpa işləri aparılıb. 1992-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri Şuşanı işğal etdikdən sonra Saatlı məscidi talan edilmiş, minarəsi dağıdılmışdı. 2020-ci ildə Şuşanın azad edilməsindən sonra - 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanıldı. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparıldı.



Bərpa işləri zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Həmçinin zədələnmiş ön sütunun bərkidilməsi işləri həyata keçirilib, məscidin döşəməsi bərpa edilib. Bunlardan əlavə, araşdırmalar nəticəsində minarənin üzərindəki naxışların ilkin rəngi müəyyən olunub və minarə ona uyğun bərpa edilib, ornamentlər bütün incəliklərinə qədər qorunub saxlanılıb.

Məscidin interyer həlli bədii kamillik nümunəsi də hesab oluna bilər. Tavana dayaq olan dörd səkkizbucaqlı daş sütunlara sahib olan ibadət zalı üçnefli məkana malikdir. Bunun nəticəsində zalda sanki sonsuz sayda tağ keçidlər yaranır. Divarların səthi həndəsi fiqurlar və nəbati naxışlarla tərtib olunub. Məscidin tək minarəsi binanın arxa tərəfində inşa olunub. Güman edilir ki, minarə məscidlə eyni vaxtda deyil, sonrakı illərdə inşa edilib. Şuşanın düz fasadlı məscidlərindən olan Saatlı məscidi əsas fasadında assimetrik girişə malikdir. Bu məscidi Şuşanın digər məhəllə məscidlərindən fərqləndirən əsas xüsusiyyət onun minarəyə malik olmasıdır.

30 illik həsrətdən sonra qapıları açılan Saatlı məscidində hər gün Azan oxunur, bu torpağı düşmən tapdağından azad edən qəhrəman Azərbaycan əsgərlərinə dua edilir, şəhidlərimiz rəhmətlə anılır.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*

● Tarixi abidələrimiz



## Şamaxı qalası

Şamaxı qalası - Orta əsrlər Şamaxı şəhərini müdafiə etmək üçün inşa edilmiş qaladır. XI - XII yüzillərdə Şirvan şəhərlərinin bir çoxu böyüyüb inkişaf etmiş, bəzilərinin müdafiə tikililəri yenidən qurulmuşdu. 1045-ci ildə Şirvanşah Qubad (1043-1049) Şirvanın baş şəhəri Şamaxıya yonulmuş ağ daşdan yeni möhkəm qala divarı çəkdirmiş, dəmir qapılar qoydurmuşdur.

Arxeoloqların SSRİ dövründə Şamaxıda qazıntılar zamanı aşkar etdikləri divar qalığı Şirvanşah Qubadın tikdirdiyi Şamaxı İçqalasının (Bala qala) qalığı sayılır. Bu çağda Bala qalada Şirvanşahların yeni saray kompleksi inşa edilmişdir. Şamaxının ikinci iç qalası olan Gülüstan qalası da XII əsrdə yenidən qurularaq möhkəmləndirilmişdir. Belə geniş quruculuq işlərindən sonra bitkin paytaxt şəhərinə çevrilən Şamaxını o çağın yazarları dəmir qapılı, daş divarlı alınmaz qala, cah-cəlallı gözəl şəhər kimi təsvir edirlər.

## Şıx qalası

Mərdəkanda 16 metr hündürlüyündə inşa edilmiş qala sırf keşikçi məntəqəsi missiyasını daşıyıb. Qalaya mərdəkanlılar İşıq qalası deyirlər. Tarixi mənbələrdə isə göstərilir ki, qalanın yerləşdiyi ərazi Səid Əbdüxxeyir şeyxə məxsus pay torpağıdır. Ona görə tikilinin adı əvvəlcə Şeyx, Şıx qalası, zaman keçdikcə yerli əhalinin dilində təhrif olunaraq İşıq qala kimi formalaşıb. Tarixi 1232-ci ilə aid edilən qalanın daş kitabəsində onun Məsud oğlu Əbdülməcid tərəfindən inşa edildiyi göstərilib.



# Məktublar: problemlər, rəylər, təkliflər...



● RAZILIQ

## Şəhərimizlə qürur duyuruq




**Biz şirvanlılar Prezidentin ölkəmizin inkişafı naminə göstərdiyi səyləri, işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirdiyi bərpa və quruculuq işlərini, yürütdüyü daxili və xarici siyasəti tam dəstəkləyirik.**

Ordumuz Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan xalqına zəfər bəxş etdi. Bu zəfər ölkəmizin beynəlxalq aləmdə güclənməsinə və söz sahibi olaraq dünya dövlətlərinin Azərbaycanla hesablaşmasına səbəb oldu. Dövlətimizin gücündən, Müzəffər Komandanımız və ordumuzun "dəmir yumruğ"undan hələ uzun illər danışılacaq.

Bu gün təkcə Qarabağ və Şərqi Zəngəzur deyil, bütövlükdə Azərbaycan, o cümlədən regionlarımız yenidən qurulur. Bu inkişafdan bizim Şirvan da kənarda qalmayıb. Prezident bir neçə il əvvəl şəhərimizin sakinləri ilə görüşərkən demişdir: "Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramının icrası uğurla yerinə yetirilir, Azərbaycanın sosial siması dəyişir. Şadam ki, bu proqram sizin Şirvan şəhərində də uğurla yerinə yetirilir".

Bəli, bu gün şəhərimizdə uzun illər üst-üstə yığılıb qalmış problemlər həll edilmiş, kanalizasiya və su sistemləri yenidən qurulmuş, qaz və elektrik enerjisi təchizatındakı çətinliklər aradan qaldırılmış, yeni iş yerləri açılmış, çoxsaylı abadlıq işləri görülmüşdür. Bir sözlə, ölkəmizdə həyata keçirilən davamlı inkişaf strategiyası sayəsində bizim Şirvanın da siması büsbütün dəyişmişdir.

**Hacı Əhməd AĞAKİŞİYEV,**
**Şirvan şəhər sakini,**
**təqaüdçü pedaqoq**

● QAYĞI

## Yaman gündə dayaq oldular



**Qubanın Dərk kəndində yaşayırıq. Ailəmiz heyvandarlıqla məşğul olur. Uzun illərdir ki, çörəyimiz bu sahədən çıxır.**

Bir müddət əvvəl yaşadığımız ev yanğın nəticəsində yararsız vəziyyətə düşdü. Həyətdə yerləşən ot tayası, mal-qara üçün tikili də yanaraq kül oldu.

Mənim iki övladım Birinci Qarabağ müharibəsində şəhid olub. Qoşqar və Eldar Məhərrəmovlar hər ikisi cəbhəyə könüllü getmişdi. Mən şəhid ailəsinə edilən hörmətin növbəti dəfə şahidi oldum. İnanın ki, kəndimizin camaatı kömək üçün tökülüb bizə gəldi. Hələ rayonun təşkilatlarını demirəm. Bizə dəyən zərər hesablandı və əməli iş başlandı. Bir şəhid ailəsi kimi tək olmadığımızı gördüm. Bizi müvəqqəti yaşamaq üçün xüsusi ayrılmış evə yerləşdirdilər.

Hazırda evin yeri təmizlənir. Tikinti materialları artıq gətirilib. Əminik ki, evimiz tezliklə tikiləcək, yaman günümüzün ömrü qısa olacaq. Biz bu xeyirxah işdə köməyi keçənlərə ailəmiz adından minnətdarlığımızı bildiririk.

***Rəhilə MƏHƏRRƏMOVA,***
***Quba rayonu, şəhid anası***

● İRAD

## Hər dəfə müayinədən keçməyə nə ehtiyac?

**Neqativ hallarla üzləşəndə düşünürsən ki, niyə tətbiq olunan bəzi xidmətlər insanların rahatlığı əvəzinə, əksinə, onlarda narahatlıq doğurur. Məsələn, elə götürək şəkər xəstələrinin dərmanla təmin olunması xidmətini...**



Əvvəllər şəkər xəstələrinə xüsusi kart verilirdi və o kartla xəstələr dərmanlarını təyin olunmuş apteklərdən rahat ala bilirdilər. Əgər kiminsə həkim müayinəsinə ehtiyacı vardısa, onlar növbəyə dururdu. Amma indi TƏBİB-in təyin etdiyi qərara əsasən, xəstələr mütləq müayinədən keçməli və yalnız ondan sonra həkimin verdiyi sənədlə dərmanlarını ala bilərlər. Ehtiyacı olan, olmayan mütləq müayinədən keçməlidir. Bu da hər gün saysız-hesabsız növbələrin yaranmasına və bu növbələrin günlərlə uzanmasına, narahatlığa, üzüntülərə səbəb olur. Məsələn, yaşlı insanlar, pensiyaçılar səhər saat 5-dən, 6-dan poliklinikalara üz tutub növbə saxlayırlar (halbuki həkimlər isə səhər saat 9-10-dan tez gəlmirlər). Növbələri çatanlar müayinədən keçib reseptlərini əldə edə bilirlər. Bəs işləyən adamlar neyləsinlər? Axı onlar saatlarla növbədə qala bilmirlər.

Biz görmüşük ki, hər hansı bir qərar veriləndə mütləq insanların rahatlığı nəzərə alınır. Elə isə, TƏBİB-in bu qərarına nə ad verək?

***Bəhlul MİRZƏYEV,***
***Bakı şəhər sakini***

● FOTOFAKT



*Foto İlham BABAYEVİNDİR*

*Fotolardan gördüyünüz kimi, şəhərin müxtəlif ərazilərindəki bu piyada keçidlərində fiziki qüsurlu insanların keçiddən istifadəsi nəzərdə tutulmayıb. İstər yeraltı, istərsə də yerüstü keçidlərdə əlil arabalarının, uşaq arabalarının hərəkəti mümkünsüzdür. Hətta bəzi keçidlərdə məhəccərlər belə quraşdırılmayıb. Bəzi keçidlərdə əlillərin istifadəsi üçün nəzərdə tutulmuş elevatorların işləmədiyinin də şahidi olduq. Keçidlərdə quraşdırılmış pantusların mailliyi beynəlxalq normadan o qədər yüksəkdir ki, əlil və uşaq arabaları üçün çox böyük çətinlik yaradır. Nəinki əlillər, səhhətində problem olan yaşlılar, xəstələr də hündür pilləkənli keçidləri qalxıb düşməkdə əziyyət çəkirlər. Bu problemlər piyadaları yolu qadağan olunmuş yerlərdən keçməyə məcbur edir və qəzaların yaranmasına yol açır.*

*Ümidvarıq ki, əlaqədar təşkilatlar yaxın vaxtlarda bu problemləri aradan qaldıracaqlar.*

● PROBLEM

## Şəhidin adını daşıyan küçə bərbad vəziyyətdədir



**Son illər şəhərimizdə böyük quruculuq-abadlıq işləri görülür. İndi Mingəçevir daha da abadlaşıb. Bununla belə, bəzi yerli qurumların səhlənkarlığı üzündən şəhər sakinləri müəyyən çətinliklərlə də qarşılaşırlar.**

Yaşadığımız şəhid Malik Abdullayev adına küçə baxımsız haldadır. Küçəmizin sakinləri bir neçə dəfə aidiyyəti qurumlara müraciət etsələr də, baxan olmayıb. Hər dəfə bir bəhanə gətiriblər. Əvvəllər küçəmiz asfaltlanmışdı. Sonradan o birilər kimi, bizim küçəmizdə də kanalizasiya xətləri çəkməyə başladılar. O biri küçələr abadlaşdırıldı, amma şəhid Malik Abdullayev adına küçə daha bərbad hala düşdü.

Bir ildir ki, küçə bu vəziyyətdədir. Məktəb vaxtı uşaqlar dərsə gedə bilmirlər. Yaşlılar və xəstələr də əziyyət çəkirlər. Sakinlər qışda palçıqdan, yayda isə toz-torpaqdan küçəyə ayaq basa bilmirlər.

Dərdimizi qəzetinizə yazmaqla sizdən kömək göstərməyinizi xahiş edirik. Çünki şəhərdəki müvafiq qurumlar bizim saysız müraciətlərimizə biganə yanaşırlar.

***Pərviz RƏSULOV,***
***Mingəçevir şəhəri***
***şəhid Malik Abdullayev adına küçənin sakini***



● TƏƏSSÜF

## Dərmanlar ziyanvericilərə təsir göstərmir

**Mən uzun illərdir taxıl yetişdirməklə məşğul oluram. Hər il sahələrdən bol məhsul əldə edirəm. Keçən il də zəmilərdə yüksək məhsuldarlıq əldə etdim.**

Bu uğurdan ruhlanaraq cari il üçün bol məhsulun təməlini qoydum. İndi sahələrdə bol taxıl var. Məhsulu saxlamaq üçün əlimdən gələni edirəm. Lakin ziyanvericilərə qarşı apardığım mübarizə səmərə vermir. Belə ki, çox baha qiymətə aldığım dərmanlar ziyanvericilərə təsir göstərmir.

Hörmətli redaksiya! İndi bilmirəm kimə müraciət edim. Külli miqdarda vəsait xərcləmişəm. Qorxuram ki, məhsuldarlıq aşağı düşə. Yaxşı olardı ki, bu vacib məsələni qəzetdə işıqlandırasınız.

***Sərxan BAYRAMOV,***
***Şəmkir rayonunun***
***Nərimanlı kənd sakini, fermer***

● NÖQSAN

## İctimai nəqliyyatda vəziyyət nə vaxt düzələcək?

**İctimai nəqliyyatın problemlərindən nə qədər yazılsa da, deyilsə də, xeyri yoxdur. Götürək xətlərdəki köhnə nəqliyyat vasitələrini.**



Onların istismara yaramaması göz qabağındadır: tez-tez yollarda xarab olub qalırlar, oturacaqlar pis gündə, kondisionerləri yox, xəttin o başından bu başına 2-3 saata gedib çıxırlar. Sərnişinlər dayanacaqlarda avtobusları yarım, hətta bir saat gözləməkdən zinhara gəlirlər. Elə marşrutlar var ki, axırıncı dayanacaqda üç-üç, beş-beş dayanıb durur, nəyi gözləyirlər, bilinmir. Deyəndə də cavab verirlər ki, vaxtımıza hələ var. Hansı ki sərnişinlərin dayanacaqlarda onları gözləməkdən "gözlərinin kökü saralır".

Bu səbəbdən də avtobuslarda ağlasığmaz sıxlıqlar yaranır. Nəfəsi kəsilənlər, ürəyi sıxılanlar, halı dəyişənlər yarı yolda düşmək məcburiyyətində qalırlar. Görəsən bu dözülməz hallar nə vaxta kimi davam edəcək?

***Səməd MƏMMƏDOV,***
***Bakı şəhər sakini***

● GİLEY

## Kəndli otbiçən texnika istəyir

**Lerik rayonunun kəndlərində təsərrüfat işlərinin qaynar çağıdır. Çörəyi torpaqdan çıxan kəndli çox vaxt səhərin gözünü iş başında açır.**

Kənd adamının dolanışığına təsir edən yem tədarükü başlanıb. Məlumdur ki, heyvandarlığın inkişafı bol və keyfiyyətli yemdən asılıdır. Bu işi isə texnikasız görmək mümkün deyil.

Havalar əlverişli keçdiyinə görə biçənəklərdə bol ot yetişibdir. Amma texnika olmadığından torpağa bəzək, adamlara var-dövlət gətirən çiçəkli, laləli çəmənlərdə, yamaclarda dəryazla ot çalınır. Lerikin əksər yerində kəndli nağd pulu hesabına texnika istəsə də, hələlik onun səsini eşidən yoxdur.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayonunun***
***Bradi kənd sakini***

● TƏHLÜKƏSİZLİK

## Saray qəsəbəsində piyada keçidinə ehtiyac var

**30 ildən çoxdur ki, Abşeron rayonunun Saray qəsəbəsində yaşayıram. Əvvəlki dövrdə yollarımız pis gündə idi. Küçələrdən keçən maşınların toz-torpağı evləri bürüyürdü. İndi isə yollarımız təmirlidir. Səkilər, qəsəbədaxili küçələr, demək olar ki, hamısı abadlaşıb.**



Bakıdan Sumqayıta gedən yol da Saraydan keçir. Hər gün səhər saatlarından günbatanadək maşınlar küçələrdə şütüyür. Sarayın ən uzun küçəsi Ulu Öndər Heydər Əliyevin adını daşıyır. Yolun bir başı Sumqayıt, digər başı isə Masazır yolu ilə birləşir. Küçənin birləşdiyi yerdə dairə var. Üç istiqamətə yolu idarə edən dairə kiçik diametrdədir. Bəzən dairəyə girən avtomobil qarşıdan gələnlə toqquşur.

Əgər dairə bir qədər geniş və betonla hörülmüş olsa, maşınlar da rahat manevr edər. Yolun həmin hissəsini genişləndirməklə bunu etmək mümkündür. Həm də küçədə yol hərəkətini nizamlayan yerüstü xətlər pozulub. Piyada keçidləri görünməz haldadır. Odur ki, maşınlar haradan gəldi keçir.

Bizcə, uzunluğu 2 kilometrə yaxın olan bu yolun üzərində piyada keçidinin tikilməsi də vacibdir.

***Tuncay MƏMMƏDOV,***
***Abşeron rayonunun Saray qəsəbə sakini***

AZƏRBAYCAN-a cavab verirlər

## "Rayon mərkəzinə avtomobillə gediş-gəlişdə problem yoxdur"

**Sizin 8 iyun 2023-cü il tarixli məktubunuza ("Azərbaycan" qəzetinin 8 iyun 2023-cü il tarixli sayında dərc edilmiş "Kəndimizin 10 il əvvəl çəkilən yolu dağılıb, təmir edən yoxdur" sərlövhəli məqaləyə) cavab olaraq bildiririk ki, 3 min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Zağalı-Kollu-Çıraqlı avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2 aprel 2012-ci il tarixli sərəncamı olmuşdur.**

Həmin sərəncama uyğun olaraq, layihə əsasında ümumi uzunluğu 21,3 kilometr olmaqla Zağalı-Zinzahal (16 km) avtomobil yoluna asfalt örtük salınmış, Zinzahal-Kollu (5,3 km) avtomobil yolunun isə alt layının tikintisi karxana çınqılı, üst layının tikintisi qum-qırmadaş qarışığı ilə aparılmışdır. Layihə Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Agentliyi Təsisatdankənar Dövlət Ekspertiza Baş İdarəsi tərəfindən ekspertizadan keçirilmiş və tikinti-quraşdırma işləri layihə əsasında aparılaraq başa çatdırılmışdır.

Zağalı-Kollu-Çıraqlı avtomobil yolunun əsaslı təmiri zamanı Qaraqullar kəndinin avtomobil yoluna da asfalt örtüyü salınmışdır. Yol Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin balansına götürülmüş və hazırda agentliyin "31 nömrəli Yol İstismarı" MMC-nin xidmət etdiyi ərazidir.

Hazırda Qaraqullar kəndindən əhalinin rayon mərkəzinə gediş-gəlişində və nəqliyyatın hərəkətində heç bir çətinlik mövcud deyildir. Rayon ərazisində yaşayış məntəqələri arasında olan avtomobil yollarının ümumi vəziyyəti normaldır.

***Əhəd ABIYEV,***
***Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı***

## Məqsədəuyğun hesab edilmir

**Sizin 19 may 2023-cü il tarixli məktubunuza müvafiq qaydada baxılmış və tərəfimizdən təhlillər aparılmışdır.**

Cari dövrdə Göyçay rayonunda fəaliyyət göstərən bankomatların dövriyyəsi ümumilikdə rayon üzrə kart istifadəçilərinin sayı ilə uyğunluq təşkil edir. Məktubda qeyd olunan Göyçay rayonu, Qaraməryəm kəndi üzrə əməkhaqqı və sosial layihələrə dair ödəniş kartlarının digər banka aid olduğunu nəzərə alaraq, hazırda qeyd edilən ünvanda əlavə bankomatın quraşdırılması məqsədəuyğun hesab edilməmişdir.

Məlumat üçün bildiririk ki, hazırda Göyçay rayonu, Qaraməryəm kənd ərazisində "Kapital Bank" ASC-yə məxsus bankomat müştərilərə xidmət göstərir və yüklü bankomat hesab edilmir.

***Fərid HİDAYƏTZADƏ,***
***İdarə Heyətinin üzvü,***
***Baş Korporativ satış inzibatçısı***

## Bələdiyyə sədrlərinə tövsiyələr verilmişdir

**"Azərbaycan" qəzetinin 19 may 2023-cü il tarixli sayında dərc olunmuş "Nə qədər ki gec deyil" sərlövhəli oxucu məktubunda qaldırılmış problemin həlli istiqamətində müvafiq tədbirlərin görülməsi ilə bağlı rayon icra hakimiyyətinə daxil olmuş 19 may 2023-cü il tarixli məktubunuza baxılmışdır.**

Bildiririk ki, məqalədə qeyd olunmuş məsələlər araşdırılmışdır. Məlum olmuşdur ki, rayonun Bürsülüm, Dəstər və Siyov kənd inzibati ərazi dairələrində torpaq islahatı 1998-1999-cu illərdə aparılmışdır. Məqalədə qeyd olunmuş dərə kənarları, yamaclar, kollu örüş və kəndətrafı örüş sahələri, o cümlədən də "Əlioba" adlanan ərazi bələdiyyə mülkiyyətində saxlanılmışdır. Azərbaycan Respublikasının Torpaq Məcəlləsinə, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Azərbaycan Respublikası Qanununa və digər normativ-hüquqi aktlara əsasən, bələdiyyə mülkiyyətində olan torpaqlara sərəncam verilməsini, həmin torpaqların istifadəsi və mühafizəsi sahəsində idarəetməni bələdiyyələr həyata keçirirlər. Vətəndaşlar tərəfindən zəbt olunmuş torpaq sahələrinin qısa müddət ərzində asudələşdirilməsi ilə bağlı aidiyyəti üzrə bələdiyyə sədrlərinə müvafiq tövsiyələr verilmişdir. Hazırda zəbt olunmuş torpaq sahələrinin asudələşdirilməsi istiqamətində iş aparılır.

***Əkbər ABBASOV,***
***Lerik Rayon İcra Hakimiyyətinin başçısı***

# "AzerGold" QSC-də çalışan Daşkəsən sakinləri ilə görüş keçirilib



"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) çalışan Daşkəsən sakinləri və ətraf kəndlərdə yaşayan vətəndaşlarla görüşüb.

"AzerGold" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, ÇİRES-də keçirilən görüş əməkdaşların iş şəraiti, onları qayğılandıran məsələlərin müzakirəsi, həmçinin səhmdar cəmiyyətin korporativ sosial məsuliyyət (KSM) fəaliyyəti çərçivəsində sosial ehtiyacların müəyyənləşdirilməsi və gələcəkdə icrası nəzərdə tutulan təşəbbüslərlə bağlı fikir mübadiləsinin aparılması məqsədi daşıyıb.

Tədbirdə çıxış edən Z.İbrahimov "AzerGold" QSC-nin mütərəqqi beynəlxalq təcrübə və standartlar əsasında həyata keçirdiyi hasilat və istehsalat fəaliyyəti zamanı ətraf mühitin mühafizəsi, işçilərin sağlam və təhlükəsiz əmək şəraiti ilə təmin olunması sahəsində görülən işlərdən danışıb. O, təbii resurslardan səmərəli istifadə, dayanıqlı inkişaf konsepsiyasının tətbiqi və sosial məsuliyyətlilik prinsipləri əsasında fəaliyyətini təşkil edən "AzerGold" QSC tərəfindən yerli sakinlərlə iş, onların məşğulluğu, sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması, təhsil, səhiyyə xidmətlərinə əlçatanlığın artırılması, biomüxtəlifliyin qorunması, idmanın inkişafı və digər istiqamətlərdə sistemli tədbirlərin icra edildiyini bildirib. Qeyd edib ki, KSM fəaliyyəti çərçivəsində Quşçu qəsəbə tam orta məktəbinin yeni modul tipli binası inşa olunub, Çovdar, Çaykənd kəndlərinə su xətti çəkilib, yeni bulaq istifadəyə verilib, Yuxarı Daşkəsən, həmçinin Mədənçi qəsəbələrinin su təminatı yaxşılaşdırılıb, Daşkəsən şəhərində mini-futbol, universal voleybol-basketbol meydançaları yenidən qurulub, Gəncə şəhərində regional Autizm Mərkəzi istifadəyə verilib, həmçinin yerli arıçılıq təsərrüfatının inkişafına dəstək verilib. QSC-nin KSM Komitəsi tərəfindən hasilat bölgələrində yaşayan yerli icmalarla mütəmadi görüşlərin keçirildiyini, vətəndaşlar arasında vaxtaşırı sosial sorğuların təşkil edildiyini deyən idarə heyətinin sədri həmçinin sakinlər tərəfindən ünvanlanan müraciətlərin diqqətlə araşdırıldığı, ölkə qanunvericiliyi və QSC-nin Sosial Təsir və Məsuliyyət üzrə Siyasəti çərçivəsində həlli istiqamətində müvafiq addımların atıldığını diqqətə çatdırıb.

Bildirilib ki, QSC-yə daxil olan əksər vətəndaş müraciətləri Daşkəsən rayonunun Çovdar kəndinin inzibati ərazisində yerləşən "Şadax" adlandırılan müvəqqəti yaşayış məskəni və Göygöl rayonunun Tülallar kəndində mədən layihələrinin icrası çərçivəsində torpaq sahələrinin alqı-satqısı və icarəsi ilə bağlıdır. Qeyd olunub ki, mədən layihələrinin icrası ilə bağlı təsdiq edilən Ətraf Mühitə Təsirlərin Qiymətləndirilməsi sənədi, eləcə də beynəlxalq məsləhətçi şirkətlər tərəfindən hazırlanan Təfərrüatlı Texniki-İqtisadi Əsaslandırma sənədinə uyğun olaraq məhz mədən və onun sanitar-mühafizə zonasında yerləşən fərdi yaşayış evləri və torpaq sahələri üzərində mülkiyyət və istifadə hüquqlarının əldə edilməsi istiqamətində müvafiq addımlar atılır. Daşınmaz əmlakların bazar dəyərinin müəyyən edilməsi məqsədi ilə cəlb edilmiş müstəqil qiymətləndiricinin apardığı təhlillərin nəticəsi olaraq prosesin vətəndaşların maraqları və qanunvericiliyin tələblərinə uyğun həlli təmin edilir. Belə ki, Göygöl rayonunun Tülallar kəndində mədən və onun sanitar-mühafizə zonasının hüdudları xaricində yerləşən daşınmaz əmlakların alqı-satqısına zərurət olmadığından, həmçinin layihənin iqtisadi səmərəliliyinə təsir etdiyi üçün nəzərdə tutulmadığı qeyd olunub.

Çovdar kəndinin inzibati ərazisində yerləşən və el arasında "Şadax" adlandırılan yaşayış məskəninə gəlincə qeyd edilib ki, həmin ərazidə vaxtilə Kəlbəcər rayonundan məcburi köçkün düşmüş Yellicə kənd sakinləri müvəqqəti məskunlaşıblar. Sözügedən ərazi emal sahəsinin hazırda inşası davam edən anbarından təqribən 500 metr aralıda yerləşir. Layihə ilə bağlı hazırlanmış, ictimai müzakirədən keçdikdən sonra 27 avqust 2021-ci ildə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Ekspertiza Agentliyi tərəfindən təsdiq edilmiş Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi sənədində sözügedən ərazidə müvəqqəti məskunlaşan əhaliyə təhlükənin olmadığı, lakin toz, səs, vibrasiya kimi mümkün risklərin olduğu müəyyən edilib. Ona görə də "Şadax" ərazisində müvəqqəti məskunlaşmış məcburi köçkünlərin ərazidən köçürülmələri ilə bağlı məsələyə baxılıb. Lakin yaşadığı evlərin mülkiyyət hüquqlarını müəyyən edən sənədlərinin mövcud olmaması faktı qanunvericilik üzrə köçürülmə məsələsində çətinlik yaradıb. Bununla belə, əlavə edilib ki, sakinlərin həmin ərazidən köçürülməsi məsələsi ilə bağlı Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi, Daşkəsən Rayon İcra Hakimiyyəti və Kəlbəcər Rayon İcra Hakimiyyəti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsi, eləcə də digər aidiyyəti dövlət orqanlarına rəsmi məktublar göndərilib, mütəmadi olaraq danışıqlar aparılır.

Görüşdə sakinlərin müraciətləri dinlənilərək qeydiyyata alınıb. İdarə heyətinin sədri müraciətlərlə bağlı müvafiq addımların atılması, vətəndaşların qaldırdıqları məsələlərin araşdırılması və mövcud qanunvericilik çərçivəsində həll edilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Görüş iştirakçıları qəbula görə idarə heyəti sədrinə təşəkkür edib, Daşkəsən rayonunda sosial-iqtisadi inkişaf, məşğulluğun artırılması, sosial rifah halının daha yaxşılaşdırılması istiqamətində dövlətimizin yürütdüyü siyasətə "AzerGold" QSC-nin verdiyi töhfələrin Daşkəsən sakinləri tərəfindən daim yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb.

◆ Biz qayıtdıq, Vətən!

# Çinarlı yurda əbədi bahar gəlib



**Çətin səfər idi. Həm də həyatımda gecədən hazırlaşdığım ən çətin səfər. Uzun zaman getməyə çalışdığımız və müəyyən səbəblərə görə alınmayan bu səfər, nəhayət ki, baş tutdu...**

Zaman ötür, fəsillər dəyişir, illər əsrlərə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Bu illər ərzində bir çox hadisələr baş verir. Elə tarixi hadisələr var ki, müəyyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elələri də var ki, heç vaxt unudulmur. Əksinə, qərinələr ötsə, nəsillər bir-birini əvəz etsə belə, yaddaşımızdan heç vaxt silinmir. Həyatımıza yazılan hər gün "Ömür" adlı kitabımızda bizim üçün yeni səhifə açır.

1 iyul 2023-cü il...

Bu günün, ayın, ilin necə bir məna daşıdığını təsəvvür belə edə bilməzsiniz. Sanki 3 il əvvəli - 20 oktyabr 2020-ci ili xatırlatdı... Həmin gün doğma Zəngilanımızın artıq əvvəlkitək yenə bizim olduğunu öyrənmişdik. Elə o an "Gözlə Zəngilanım, sənsiz yaşadığımız günlərimizin həsrətindən qurtulmaq üçün, sənə olan vəfa borcumuzu qaytarmaq üçün mütləq gələcəyik". - deyə bir səs o günün çox da uzaqda olmadığını söyləmişdi...

Və 1 iyul 2023-cü il...

Uzun gecənin açılan sübh çağı. Zəngilana qovuşduran gözəl gün. Saniyələr belə dəqiqə, saat kimi görsənir. Vaxtın tez keçməsi üçün nələri qurban verməzdik. Bu gün axı, atamın da ruhu şad olacaqdı. Ona verdiyimiz sözü tuta biləcəkdik. Bir gün Zəngilana gedəcəyimizə və onun da ruhunun şad olacağına dair elə qəbri başında çox vədlər verib, arzu etmişdik. Bu gün həmin gün gəlib çatdı, mən, anam və ailə üzvlərimiz Zəngilana qovuşmaq üçün yol alırıq doğma yurdumuza...

Bakıdan uzaqlaşdıqca uzanan yol sanki Vətənə çatmağımıza bir addım qalırmış kimi gəlir... Yolboyu bir şeyi düşünürəm. Ötən illər ərzində yaxşı anladıq ki, Vətən həsrəti doğulduğun və böyüdüyün yerdən məcburən uzaq yaşamağın yaratdığı əzab və sıxıntıdır. Bu əzabı yaşayanlar yaxşı bilirlər. Demək olar ki, bütün insanlar doğulduqları yerdən kənarda olduqları zaman xatirələrə dalaraq darıxar, daxilən əzab çəkərlər. Bəs, 30 ilə yaxın bir dövrdə məcburi köçkünlük həyatını biz necə yaşadıq və ya ümumiyyətlə, yaşadıqmı?

28 avqust 1993-cü il... Məhz sonuncu dəfə bu tarixdə çıxmışdım Zəngilandan. Bakıda oxuyurdum. Dərslərin başlamasına 4 gün qalırdı deyə, tez çıxmalı olmuşdum rayondan. Zəngilan işğal olunmamışdan 2 ay qabaq... 16 yaşım tamam olmamışdı hələ. Bəlkə elə buna görə də bu gün Zəngilana, o 16 yaşı tamam olmamış bir kənd uşağı kimi qayıdırdım. Orada yaşadığımız qayğısız günlərimizi düşünərək yola çıxmışdıq.

Budur, uzun həsrətdən sonra doğma Zəngilanımıza çatmağımıza az qalır. Ağalı, Cahangirbəyli və sonda Mincivan yoluyla doğma kəndimizə - Qıraq Müşlana qovuşuruq.

Kənd həmin kənddir, torpağı, havası həminkidir. Lakin...

Lakin o gözəl kənddən əsər-əlamət qalmayıb...

Nə yaşadığımız evlər, nə də kəndin əvvəlki görünüşü qalmayıb. Yerləyeksan olan kəndimdə bu mənzərə sanki illərdir çəkdiyimiz iztirabı, əzabı daha da artırdı.

Artıq nənəmgilin evindəyik. İşğaldan sonra düşmənin bu evdə yaşadığı bilinirdi. O ev ki, ömrümüzün gözəl çağları bu evdə keçib. Kədər, sevinc, əzab, iztirab, bütün duyğular bir-birinə qarışıb. İllərdir həsrət çəkən gözlərimizdən sevinc göz yaşları axır. Qəhər və qürur sanki bir duyğuda cəmlənib. İllərdir biz səndən necə ayrı qala bildik, illərdir həsrətimizə necə dayandın Vətən? Sən də bizim kimi ağlayıb, həsrət çəkib, fəryad etdinmi? Xarabazarlığa çevrilmiş kəndimizə baxanda bu sualın cavabını tapmağın elə də çətin olmadığını anlayırıq. Qürurlanırıq ki, bu gün sənin yanındayıq Vətən, doğma Zəngilanımız. İllər öncə səndən ayrılan uşaq kimi hüzuruna gəlmişik, sənə qayıtmışıq. Qarışıq fikirlərlə hey ətrafa boylanıram. Sanki nənəmlə babam, doğmalarım "xoş gəlmisiniz" deyərək boynuma sarılacaqlar. Bir ümiddir, arzudur bəlkə, ancaq bu an buna ehtiyacım olduğuna əminəm. Sanki şirin bir yuxudayam və heç ayılmaq istəmirəm.

Nənəmgilin evindən ayrılıb yol alırıq öz evimizə tərəf... Elə bilirdim nənəmgildə olduğu kimi, böyüyüb boya-başa çatdığım evimizi də görəcəm. Ancaq... Ancaq yaddaşımdakı o ev artıq yox idi. İllər öncə puç olan arzularım, ümidlərim kimi o ev də məhv olmuşdu. Düşmən illər öncə bizdən aldıqları azmış kimi, evimizi də yerləyeksan edib. Bir daş belə qalmayıb ki, illər öncə söykədiyim kürəyimi yenə o daşlara söykəyim. Olsun...

Bu mənzərə ürəyimizi dağlasa da, xoşbəxtik. Atamın ayaq izinin olduğu, nəfəsinin dolaşdığı doğma yurdumuzda, evimizdəyik. Torpağına ayağımız dəyir, havasını ciyərlərimizə çəkə bilirik. Xoşbəxtəm ki, atama doğma Zəngilanını görmək qismət olmasa da, anama görmək, gəlib ziyarət etmək qismət oldu. Xoşbəxtəm ki, illərdir bizdən eşitdikləri ilə doğma yurdları haqqında xəyal quran övladlarımız Zəngilanı görə biləcəklər. Xoşbəxtəm ki, artıq Zəngilansızam deyil, zəngilanlıyam söyləyirəm. Xoşbəxtəm ki, ata yurdumda elə atamın arzuladığı kimi bir həyatı yaşayacağam. Atamın sağlığında Zəngilanla bağlı arzularını həyata keçirə biləcəyəm. Onun ruhu şad olsun deyə biz övladları Zəngilana qayıdıb, onun adını Bakıda olduğu kimi, doğma yurdunda da yaşadacağıq.

Artıq Zəngilandayıq. Ali Baş Komandanın rəhbərliyi altında müzəffər ordumuzun bizlərə qaytardığı Zəngilandayıq. Yaxın gələcəkdə Zəngilan yenidən cənnətə çevriləcək. Biz də doğma kəndimizdə yaşayaraq deyəcəyik ki, Allah sizə rəhmət eləsin doğma Zəngilanımızı bizə qaytaran, bu yolda canlarını fəda edən şəhidlərimiz.

***Dönməz ABBASOV***

# Paşinyanın "xoşbəxt Hayastan"ı can verir

## Azsaylı investorlar da hakimiyyətə olan inamsızlıq üzündən ölkədən qaçırlar

Hayastanı "xoşbəxt ölkə" kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, bu ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır.

Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadan ölkədə əhalinin yaşayış səviyyəsinin sürətlə pisləşməkdə olduğunu göstərir.

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası ilk olaraq ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Hayastana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar da Paşinyan hakimiyyətinə inamsızlıq üzündən Hayastanı tərk ediblər. Deməli, Hayastanın "yüksəliş"də olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib". Qeyd olunur ki, bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Hayastan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Hayastanda son iki il yarım ərzində ölkə sənayesinə kredit qoyuluşları 42 milyon dollar azalıb.

Beləliklə, artıq iflic vəziyyətində olan Hayastan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən 6 ay ərzində ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərəçarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Hayastan üçün yenə ən ciddi problemlərdən biri demoqrafiya sahəsində qeydə alınan böhrandır. Xatırladaq ki, Hayastanın əhalisi 1990-cı ildən başlayaraq davamlı surətdə azalır. Rəsmi məlumatlara əsasən, ölkənin əhalisi 2,8 milyon nəfərdir. Doğum səviyyəsi özünübərpa səviyyəsindən çox aşağıdır. Ekspertlər bildirirlər ki, Hayastan artıq demoqrafik böhran həddinə çatıb, yəni ölüm doğumu üstələyir.

Hayastan Statistika Komitəsinin son məlumatları da vəziyyətin acınacaqlı olduğunu təsdiq edir. Qurumun bildirdiyinə görə, bu ölkənin ali məktəblərində 15 mindən çox tələbə yeri boş qalıb. Erməni təhsil eksperti Karen Naumyanın sözlərinə görə, bu ölkənin gələcəyi üçün əsl fəlakətdir. Çünki proses getdikcə dərinləşir və bu rəqəm hər il artmaqda davam edəcək.

Hayastanda təhsilin keyfiyyətindən danışan ekspert bildirib ki, hazırda tələbə çatışmazlığının kökündə duran məsələ təhsildəki problemlər deyil, demoqrafik böhrandır. Ölkə əhalisinin sayının azalması artıq gənc nəslin sayında özünü büruzə verməyə başlayıb. Məlumata görə, əvvəllər ölkəni əsasən iş qabiliyyətli əhalinin yaşı 30-dan yuxarı hissəsi tərk edirdisə, artıq erməni ailələri uşaqları ilə birlikdə gedirlər.

Xatırladaq ki, "4rd.am" nəşri "Hayastanda kənd məktəbləri qürub edir" başlıqlı məqaləsində təhsillə bağlı kifayət qədər acınacaqlı məqamları diqqətə çatdırıb. Orta məktəblərdə təhsilin vəziyyətindən söhbət açan müəllif bu sahədə acınacaqlı vəziyyətin yarandığını vurğulayıb. Bildirib ki, Hayastanın elm və təhsil naziri yerli kütləvi informasiya vasitələrinə verdiyi müsahibəsində təhsil sahəsində problemlərin həll olunduğunu bildirsə də, son iki ildə onlarla kənd məktəbinin bağlanması onun dediklərini şübhə altına alır.

Qeyd edilənlər Hayastanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və məğlub ölkənin daha böyük sürətlə məhvə doğru sürükləndiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 11.07.2023-cü il saat 23:00-dan etibarən 12.07.2023-cü il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# Arabir güclənən şimal-qərb küləyi əsəcək

**Azərbaycanda iyulun 11-nə gözlənilən hava proqnozu açıqlanıb.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu, əsasən yağmursuz olacağı gözlənilir. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 19-24°, gündüz 26-31° isti olacaq.

Abşeron çimərliklərində arabir güclənən şimal-qərb küləyi əsəcək. Küləkli hava şəraiti ilə əlaqədar dənizdə dalğanın artacağı gözlənilir. Bununla əlaqədar əhalinin çimərliklərdə ehtiyatlı olmağı tövsiyə olunur.

Dəniz suyunun temperaturu: şimal çimərliklərində (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zağulba) 25-26° isti, cənub çimərliklərində (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq.

Azərbaycanın dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli, intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 30-35° isti, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi, general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Elektroenergetika və Elektrotexnika Sənayesi İşçiləri HİRK-in sədri Musa Mirzəyevə bacısı

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4880
Sifariş 1719

Qiyməti 40 qəpik